

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Keçmişə ehtiram, gələcəyə inamla: Heydər Əliyev irsindən bəhrələnən müasir Azərbaycan gəncliyi"**




4

# SƏS


№ 194 (6877)

24 oktyabr 2023-cü il.
Qiyməti 60 qəpik


# Yeniləşən, inkişaf edən Sumqayıt!



2

*PREZİDENT İLHAM ƏLİYEV: «Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir»*

# Paris və İrəvan silahı seçir

*Fransanın Ermənistanı silahlandırmasının əsl səbəbi bilindi*



7

## Su qiyamətinə hazırsınızmı?



12

## Əli Kərimli cəmiyyətə özünü trol kimi tanıdıb



14

## Övlad sevgisi: bizdə və heyvanlarda



9

## Bir yastıqda qocalırıqmı?



8

## Bəni öldürsələr də bən yaşarım




11

# Yeniləşən, inkişaf edən Sumqayıt!

## PREZİDENT İLHAM ƏLİYEV: «Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir»

***Bu gün Azərbaycanın bütün bölgələri, şəhər və kəndləri kimi Sumqayıt şəhəri də yeni inkişaf dövrünü yaşayır. Burada aparılan abadlıq-quruculuq işləri şəhərin gözəlliyinə daha bir rəng də əlavə edib. Dövlətimiz tərəfindən inkişafa və quruculuğa verilən töhfələr Sumqayıtın inkişafında da müstəsna əhəmiyyət daşıyır. Azərbaycanın, eləcə də Cənubi Qafqazın mühüm sənaye mərkəzlərindən biri kimi tanınan Sumqayıtın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Şəhərin sosial-iqtisadi, o cümlədən, elminin, təhsilinin, mədəniyyətinin inkişafına Ulu Öndər Heydər Əliyev böyük töhfələr vermişdir.***



Ulu Öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi islahatlar nəticəsində Sumqayıt da yeniləşir, inkişaf edir. Prezident İlham Əliyevin apardığı iqtisadi və sosial siyasəti nəticəsində həyata keçirilən dövlət proqramlarının uğurla icrası Sumqayıt şəhərinin də inkişafında mühüm rol oynadı. Sumqayıt Texnologiyalar Parkının, Sumqayıt Kimya Parkının yaradılması ölkə başçısının şəhər-









də sənayenin inkişafına göstərdiyi böyük dəstəyin təzahürüdür. Prezident İlham Əliyevin hər dəfə Sumqayıta səfəri şəhərin inkişaf və yüksəlişinə töhfəsini verir.

Oktyabrın 23-də Prezident İlham Əliyevin Sumqayıt şəhərinə səfəri yeni, mühüm hadisələrlə zəngindir. Dövlət başçısı Sumqayıt şəhərinə səfəri zamanı ilk olaraq Ulu Öndər Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, abidəsi önünə gül dəstələri qoyub. Belə ki, Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkı olmaqla, həm də Sumqayıt Kimya Parkının yaradılması ölkə başçısının şəhərdə sənayenin inkişafına göstərdiyi böyük dəstəyin təzahürüdür.

### NÖVBƏTİ SƏFƏR, NÖVBƏTİ TƏMƏLQOYMA VƏ AÇILIŞLAR

Oktyabrın 23-də Prezident İlham Əliyev Sumqayıt şəhərində səfəri, səfər çərçivəsində Sumqayıt Kimya Sənayesi Parkında "Çinar-Servis" İstehsal-kommersiya firmasının Texniki qazların istehsalı müəssisəsinin, "Novus Plastica" MMC-nin Polimer qatqıları istehsalı müəssisəsinin, "Universal Qablaşdırma Sənayesi" QSC-nin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin, "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışında iştirak edib, "Kartaş Kimya" MMC-nin müxtəlif Tikinti kimyəvilərinin istehsalı müəssisələrinin təməlinin qoyulması ölkə başçısının şəhərdə sənayenin inkişafına göstərdiyi böyük dəstəyin təzahürüdür.

Ardı Səh. 3

# Yeniləşən, inkişaf edən Sumqayıt!

## *PREZİDENT İLHAM ƏLİYEV: «Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir»*



Əvvəli-Səh-2

### SUMQAYIT KİMYA SƏNAYE PARKI AZƏRBAYCANDA YARADILMIŞ İLK, CƏNUBİ QAFQAZDA İSƏ ƏN BÖYÜK SƏNAYE PARKIDIR

Dövlətimizin başçısı əvvəlcə Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak edib. Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır.

Bildirilib ki, hazırda ərazisi 583,5 hektar təşkil edən sənaye parkında neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Parkda ümumi investisiyaların həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb. Qeydiyyata alınmış 38 rezidentdən artıq 20-si fəaliyyət göstərir. Bu gün "Azərbaycan Vanhong Ceramics Co." MMC, "Novus Plastica" MMC və "UPI - Universal Packing Industry" QSC-nin açılışı ilə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə çatır.

İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi - təqribən 35 faizi ixracın payına düşür. Sənaye parkında 2023-cü ilin 9 ayında 2,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 674,4 milyon manatlıq hissəsi ixrac olunub.

Qeyd edildi ki, hazırda burada 6600-dən çox insan daimi işlə təmin olunub. Bundan əlavə, mövcud layihələr üzrə sənaye parkına əlavə olaraq 394 milyon manatdan artıq investisiyanın yatırılması, 2000-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur. Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac olunub.

Prezident İlham Əliyev "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışını edib, müəssisədə yaradılan şəraitlə tanış olub. Bildirilib ki, "Vanhong Ceramics"in hazırda Çində 5 zavodu var, həmçinin dünyanın 5 ölkəsində müəssisələri fəaliyyət göstərir.



Prezident İlham Əliyev "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin baş direktoru Ciyi Vanq ilə görüşü zamanı bildirib ki, Azərbaycana bu qədər vəsait qoyursunuz, 81 milyon manat investisiya çox böyük rəqəmdir: «Bu investisiyalar şirkətiniz, yəni, Çin şirkəti tərəfindən qoyulur. İndi mən gördüm ki, işçilərin sayı da 500-ə yaxındır. Bu, eyni zamanda, iş yerlərinin yaradılması proqramımıza da növbəti töhfədir. Əlbəttə ki, belə müəssisələr Çin-Azərbaycan dostluğunu daha da gücləndirir. Bu zavod cəmi bir il yarıma inşa edildi. Yəni, ilyarım bundan əvvəl mən onun təməlini qoymuşam».

Prezident İlham Əliyev, həmçinin yenidən qurulan Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yaradılan şəraitlə tanış olub, 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasının açılışında iştirak edib. Həmçinin, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 20-də Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun açılışında iştirak edib.

Bir sözlə, Prezident İlham Əliyevin Sumqayıta növbəti səfəri və səfər zamanı yeni müəssisələrin açılışı və təməlqoyma mərasimləri dövlət başçısının həyata keçirdiyi uğurlu siyasətin məntiqi davamı olmaqla Sumqayıt yeniləşən, güclənən inkişaf yolundadır. Dövlət başçımızın söylədiyi kimi: «Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir».

**RƏFİQƏ KAMALQIZI**

---

# MEDİA Avstriyanın "Der Standard" qəzetində dərc olunmuş saxta xəbər əsaslı material barədə açıqlama yayıb

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) Avstriyanın "Der Standard" qəzetinin 21 oktyabr nömrəsində dərc olunmuş saxta xəbər (feyk nyus) əsaslı material barədə açıqlama yayıb. MEDİA-dan AZƏRTAC-a daxil olan açıqlamada bildirilib: "Avstriyanın "Der Standard" qəzeti 2023-cü il 21 oktyabr il tarixli nömrəsində "Dağlıq Qarabağda etnik təmizləmə təhlükəsi" başlıqlı reportaj yayımlanıb. Materialın müəllifi, telejurnalist Jo Angerer heç bir araşdırma aparmadan müxtəlif detalları fakt kimi təqdim edərək bu il sentyabrın 19-da Azərbaycanın öz ərazisində beynəlxalq hüququn norma və prinsiplərini əsas götürərək apardığı lokal antiterror tədbirləri barədə yanlış təəssürat yaratmışdır. Jurnalist auditoriyanı yönləndirmək məqsədilə xəbərin miqyası və məzmunundan daha çox onun şərh hissəsini manipulyasiya predmetinə çevirmiş, qarşı tərəfin rəyini nəzərə almayaraq jurnalistikanın balans prinsipini pozmuş, bölgədəki mövcud vəziyyəti obyektiv ifadə etməyən birtərəfli material hazırlamışdır.

Azərbaycan Respublikasının müvafiq rəsmi hakimiyyət orqanları hansı media subyektində çalışmasından və hansı ölkəni təmsil etməsindən asılı olmayaraq bütün jurnalistlərin informasiya əldə etmək hüququna hörmətlə yanaşır və jurnalist sorğularının operativ cavablandırılmasına hər zaman hazırdır. Vurğulamaq istərdik ki, nə "Der Standard" qəzeti, nə də Jo Angerer lokal antiterror tədbiri ilə bağlı Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarına heç bir müraciət etməmişdir.

Qeyd edək ki, adıçəkilən qəzetdə verilmiş reportajda lokal antiterror tədbiri zamanı mülki əhalinin itkilərinin olması barədə uydurma versiyanın irəli sürülməsi saxta xəbərdir ("feyk nyus"). Belə ki, reportajda dəfələrlə Azərbaycan Respublikasının dəvəti ilə bölgədə səfərdə olaraq monitorinqlər aparmış Birləşmiş Millətlər Təşkilatının (BMT) missiyasının lokal antiterror tədbiri zamanı mülki əhaliyə heç bir ziyan dəyməqdiyi və bununla bağlı hər hansı fakt qeydə alınmadığı barədə rəyi belə nəzərə alınmamışdır. Xatırlatmaq istərdik ki, BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin və digər beynəlxalq təşkilatların əməkdaşları erməniəsilli sakinlərin Azərbaycan Respublikasının hərbi qüvvələri tərəfindən qovulması və onlara qarşı zor tətbiq edilməsi ilə bağlı heç bir hal təsdiq etməmişdir. Habelə erməniəsilli şəxslər bölgəyə gəlmiş beynəlxalq media subyektlərinə, eyni zamanda, Ermənistanın aparıcı media qurumlarına verdikləri çoxsaylı açıqlamalarında mülki əhaliyə heç bir ziyan dəyməməsi faktını dəfələrlə vurğulamışlar.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi olaraq "Der Standard" qəzetində şəxsi, subyektiv siyasi mülahizələr əsas götürülərək reallıqları təhrif edən, media etikası və jurnalistin peşəkarlığı prinsipləri ilə bir araya sığmayan materiala yer verilməsinin təəssüf hissi doğurduğunu bildirir, eyni zamanda, sözügedən qəzeti Azərbaycan Respublikasının rəsmi mövqeyini nəzərə alaraq regionumuzda mövcud siyasi reallıqlar barədə material hazırlamağa çağırırıq".

---

# Ceyhun Bayramov İran Prezidentini sülh gündəliyi üzrə atılan addımlar barədə məlumatlandırıb



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Tehranda "3+3" formatında birinci nazirlər görüşündə iştirakı çərçivəsində İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məlumatında deyilir ki, görüşdə Azərbaycan və İran arasında gündəlikdə duran əsas məsələlər, ikitərəfli və çoxtərəfli formatlarda mövcud əməkdaşlıq imkanları, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesinin perspektivləri, habelə bölgədəki cari vəziyyət barədə fikir mübadiləsi aparılıb.

İki ölkə arasında son aylarda keçirilmiş görüşlər və ikitərəfli iqtisadi komissiya çərçivəsində təmaslar, bir sıra istiqamətlərdə artan əməkdaşlıq dinamikası məmnunluqla qeyd olunub, yüksək səviyyəli görüşlərin və qurumlararası təmasların daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə nazir Ceyhun Bayramov 24 saatlıq antiterror tədbirlərindən sonra Azərbaycanın öz əraziləri üzərində tam suverenliyi bərpa etdiyi, sülh gündəliyi üzrə atılan addımlar barədə qarşı tərəfi məlumatlandıraraq bölgədə sülh və təhlükəsizliyin bərqərar olunmasında, regiona davamlı sülhün gətirilməsində, habelə regional əməkdaşlığın təşviqində ölkəmizin qərarlılığını bir daha diqqətə çatdırıb.

# “Keçmişə ehtiram, gələcəyə inamla: Heydər Əliyev irsindən bəhrələnən müasir Azərbaycan gəncliyi”



*“Heydər Əliyev İli” çərçivəsində YAP Mərkəzi Aparatı və ADNSU-nun birgə təşkilatçılığı ilə tədbir keçirilib*





Oktyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Keçmişə ehtiram, gələcəyə inamla: Heydər Əliyev irsindən bəhrələnən müasir Azərbaycan gəncliyi” mövzusunda tədbir keçirilib. Əvvəlcə Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarı ziyarət edilib, məzarın önünə gül dəstələri qoyulub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da əziz xatirəsi anılıb, məzarı önünə tər güllər düzülüb.

Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səslendirilib. Sonra Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə açılış nitqi ilə çıxış edən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, çoxəsrlik dövlətçilik tarixinin ən şanlı və şərəfli dövrünü yaşayan qalib Azərbaycan bənzərsiz uğurlara imza atır, yeni reallıqlar formalaşdıraraq öz qüdrətini artırır: ”Şərqdə ilk demokratik respublika yaratmış və 32 il əvvəl öz müstəqilliyini bərpa etmiş Azərbaycanın regionun liderinə və qalib ölkəyə çevrilməsi, dünyanın nüfuzlu dövlətləri sırasında layiqli yer tutması məhz Heydər Əliyev siyasəti sayəsində mümkün olmuşdur. Anadan olmasının 100-cü ildönümünü dərin ehtiramla və böyük minnətdarlıqla qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyev ötən əsrin 90-cı illərində - müstəqilliyin itirilməsi təhlükəsinin mövcud olduğu olduqca mürəkkəb şəraitdə xalqın qətiyyətli dəstəyi və öz liderlik keyfiyyətləri ilə Azərbaycanı tənəzzüldən xilas edərək sabitlik və inkişaf yoluna çıxarmış, məqsədyönlü və uzaqgörən siyasəti ilə respublikamızın gələcək inkişaf yolunu müəyyən etmişdir”.

YAP Sədrinin müavini vurğulayıb ki, Ulu Öndərin Azərbaycanın parlaq gələcəyi naminə müstəsna xidmətlərindən biri tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və zamanın çağırışlarına uyğun gənclər siyasətinin həyata keçirilməsidir: “Gəncləri Azərbaycanın bu günü, sabahı və ümidi adlandıran Heydər Əliyev həm SSRİ dönəmində, həm də müstəqillik dövründə respublikamıza rəhbərlik etdiyi zaman intellektual, milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər gəncliyin yetişməsinə xüsusi diqqət yetirmiş, bu istiqamətdə ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir. Gənclərlə iş sahəsində vahid dövlət siyasətinin reallaşdırılması məqsədilə Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması, Ümummilli Liderin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi və digər addımlar müdrik dövlət xadiminin gəncliyin inkişafına xüsusi diqqət və qayğısının bariz nümunəsi kimi mühüm əhəmiyyətə malikdir. Bunlarla yanaşı, Heydər Əliyevin 1999-cu il iyulun 29-da “Dövlət gənclər siyasəti haqqında” Fərman imzalaması respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün imkanların genişləndirilməsi baxımından böyük önəm daşımışdır. Bir sözlə, Ulu Öndər gənclər siyasəti sahəsində önəmli qərarlar qəbul etməklə, mühüm fərman və sərəncamlar imzalamaqla bugünkü – müasir, qüdrətli və qalib Azərbaycanın sağlam bünövrəsini yaratmışdır”.

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Heydər Əliyev siyasətini uğurla davam etdirərək son 20 ildə Azərbaycana tarixi nailiyyətlər qazandıran, ölkəmizin iqtisadi potensialının, hərbi-strateji qüdrətinin, beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artmasına, ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasına nail olan Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin siyasi kursunda mütərəqqi düşüncəli, intellektual, möhkəm əqidəli və zəngin mənəviyyatlı Azərbaycan gəncliyinin formalaşması hər zaman xüsusi yer tutmuşdur: ”Dövlət başçısı ötən müddət ərzində gənclər siyasətinin təkmilləşməsinə, bu sahədə təşkilati-hüquqi əsasların möhkəmlənməsinə, bütövlükdə Azərbaycan gəncliyinin inkişafına xidmət edən çox mühüm addımlar atmışdır. Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən 2007-ci ilin “Gənclər İli” elan edilməsi və bununla əlaqədar gəncliyin inkişafına xidmət edən çoxşaxəli tədbirlərin həyata keçirilməsi, 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması, 2013-cü ildə “Gənclər üçün Prezident Mükafatı”nın təsis edilməsi, müxtəlif Dövlət proqramlarının reallaşdırılması gənclərin cəmiyyət həyatında və beynəlxalq müstəvidə fəallığının artmasına təkan vermiş, onların müxtəlif sahələrdə uğurla fəaliyyət göstərərək yeni nailiyyətlər qazanmasına stimul olmuşdur. Bu kontekstdə çox mühüm məqamlardan biri kadr islahatları çərçivəsində gənclərə yüksək etimad göstərilməsi, onların məsul vəzifələrə, idarəetmə işinə irəli çəkilməsi, istedad və bacarıqlarını nümayiş etdirmələri üçün əlverişli şəraitin yaradılmasıdır. Bu, yeni reallıqlar fonunda idarəetmənin təkmilləşdirilməsi və dayanıqlı inkişaf baxımından böyük əhəmiyyətə malik olmaqla yanaşı, müasir çağırışlara uyğun peşəkar gənclər ordusunun formalaşmasına da töhfə vermişdir”.

Tahir Budaqov diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi əsasında həyata keçirilən layihələr, görülən işlər də fiziki və mənəvi cəhətdən sağlam gəncliyin formalaşmasına xidmət edir: “Ümummilli Liderin xalqımıza siyasi mirası olan və ümumxalq rəğbətini qazanaraq qələbələr partiyasına çevrilən Yeni Azərbaycan Partiyası da öz fəaliyyətində gənclərin potensialından səmərəli istifadə olunmasına xüsusi diqqət yetirir.

Ardı Səh. 5

# “Keçmişə ehtiram, gələcəyə inamla: Heydər Əliyev irsindən bəhrələnən müasir Azərbaycan gəncliyi”






## *“Heydər Əliyev İli” çərçivəsində YAP Mərkəzi Aparatı və ADNSU-nun birgə təşkilatçılığı ilə tədbir keçirilib*













Əvvəli-Səh-4

Təsadüfi deyil ki, bu gün YAP sıralarına yeni qoşulanların mütləq əksəriyyəti məhz gənclərdən ibarətdir və bu da Azərbaycan gəncliyinin Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin siyasətinə böyük inamından və qətiyyətli dəstəyindən qaynaqlanır. Bu gün Azərbaycan gəncliyi dövlətə, Vətənə və xalqa sədaqət andını inamla yerinə yetirən Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin inkişafına mühüm töhfələr verir, respublikamızı beynəlxalq arenada layiqincə təmsil edir. Ən əsası, qürurlu, şərəfli və vətənpərvər Azərbaycan gəncliyi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda böyük fədakarlıq və rəşadət nümayiş etdirməklə tarix yazmışdır. Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə yetişən gənclərimiz şanlı Qələbənin qazanılmasında - tarixi ədalətin, Azərbaycan dövlətinin ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasında misilsiz rol oynamışlar. Bu reallıq xalqımızın qürur mənbəyi və dövlətimizin qüdrətinin ifadəsidir. Şübhə yoxdur ki, dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunan Azərbaycan gəncləri bundan sonra da öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə Ulu Öndərin zəngin dövlətçilik irsi əsasında Zəfər yolunda əmin addımlarla irəliləyən müstəqil Azərbaycanın tərəqqisində mühüm rol oynayacaq, onlara göstərilən inam və etimadı layiqincə doğruldacaqlar!”.

Çıxışının sonunda YAP Mərkəzi Aparatının rəhbəri gənclərə cansağlığı, Heydər Əliyevin ideyaları əsasında günü-gündən çiçəklənən doğma Azərbaycanımızın daha parlaq gələcəyi üçün yeni-yeni uğurlar arzulayıb.

Sonra çıxış edən YAP İdarə Heyətinin üzvü, ADNSU-nun rektor əvəzi Vazeh Əskərov bildirib ki, istər sovet dövründə, istərsə də Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra azərbaycanlı gənclərin xaricdə təhsil almağa göndərilməsi ənənəsinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub və Ulu Öndərin ideyalarının layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir: ”Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəaliyyətində təhsilə diqqət xüsusi yer tutur. Azərbaycanın böyük oğlu, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin hələ 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ölkəmiz üçün dönüş nöqtəsi olmuş və məhz elə ilk günlərdən bütün sahələrdə islahatların aparılması ilə respublikamızın inkişaf strategiyasının əsası qoyulmuşdur. Qısa zamanda Azərbaycanın keçmiş ittifaq ölkələri arasında sənaye istehsalının artım sürətinə görə ilk yerə çıxması bütün mənalarda ölkə rəhbərliyin təkcə respublikamızda deyil, eləcə də bütün SSRİ miqyasında nüfuzunun artmasına gətirib çıxarıb”.

Onun sözlərinə görə, 1970-1982-ci illər ərzində Azərbaycanda 5 yeni ali məktəb yaradılıb, o cümlədən yeni ixtisaslar, kafedralar və laboratoriyalar fəaliyyətə başlayıb: ”Beləliklə, 1960-cı illərdə respublikada 12 ali məktəb fəaliyyət göstərirdisə, 1982-ci ildə Azərbaycanda ali təhsil müəssisələrinin sayı artıb və təhsil alanların sayı 70 mindən 100 minə yüksəlib. 1970-ci ildən etibarən hər il 800-900 nəfər azərbaycanlı gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilib. Ən əsası isə, əvvəlki illərdən fərqli olaraq xarici universitetlərdə təhsil alan tələbələrin milli tərkibi 97.7 faiz azərbaycanlılardan ibarət idi, halbuki əvvəlki illərdə respublikadan kənarda təhsil almağa göndərilənlər arasında azərbaycanlıların payı cəmi 40 faizə çatırdı”.

Vazeh Əskərov qeyd edib ki, Ulu Öndərin təhsil siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir: “Prezident İlham Əliyev son 20 ildə qarşıya qoyduğu bütün strateji məsələlərə nail olmuşdur.

Dövlət başçısı həmişə vurğulayır ki, “dövlətin, xalqın gələcəyi intellektual inkişafla bağlıdır və elmə qoyulan sərmayə millətin sabahına xidmət edir”. Bu yöndə neft strategiyasından əldə olunan gəlirlərin insan kapitalına çevrilməsi sosial-iqtisadi islahatların uğurla gerçəkləşdirilməsinə xidmət edir. Ölkə rəhbəri uğur qazanmağın əsas səbəblərini neft-qaz ehtiyatları ilə deyil, elmə, biliyə, yiyələnməklə əlaqələndirərək qeyd edir ki, təbii ehtiyatların və insan kapitalının sintezi Azərbaycanı qabaqcıl, müasir ölkəyə çevirəcəkdir. Təhsilə qoyulan vəsaitin ölkənin hərtərəfli inkişafına, iqtisadiyyatın, davamlı tərəqqinin təmin olunmasına əsaslı zəmin yaratdığını vurğulayan dövlət başçısı təhsil sisteminin müasirliyi və effektivliyini dayanıqlı sosial-iqtisadi inkişaf strategiyasının reallaşmasının əsas şərtlərdən biri kimi səciyyələndirir”.

YAP İdarə Heyətinin üzvü bildirib ki, ”Azərbaycan xalqı və dövləti heç vaxt işğal faktı ilə barışmayacaq” ,- deyən Prezident İlham Əliyevin xalqın dəstəyi ilə işğalçılara qarşı bütün cəbhələrdə qətiyyətli mübarizəsi real nəticəsini verdi: ”İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı, tarixə əbədi olaraq həkk olundu. Azərbaycan ərazi bütövlüyünü təmin etməklə tarixi ədaləti bərqərar oldu, xalqın qürur və milli ləyaqəti bərpa olundu. Cənab Prezidentin dediyi kimi, “Bizi daha heç kim və heç nə dayandıra bilməz” və ölkəmiz bundan sonra da inkişaf edəcək, yeni uğurlara imza atacaq”.

Ardı Səh. 6

# "Keçmişə ehtiram, gələcəyə inamla: Heydər Əliyev irsindən bəhrələnən müasir Azərbaycan gəncliyi"

Əvvəli-Səh-5

Vazeh Əskərov, həmçinin Ümummilli Liderin 100 illik yubileyi ərəfəsində YAP Mərkəzi Aparatı və ADNSU-nun təşkilatçılığı ilə tələbələr arasında "Heydər Əliyev - 100: Mühəndislik hakatonu" intellektual yarışının təşkil edildiyini xatırladıb. O məlumat verib ki, 14-15 oktyabr tarixində baş tutmuş tədbir Azərbaycanda fəaliyyət göstərən və mühəndislik ixtisası üzrə təhsil verən universitet tələbələrinin iştirakı ilə gənclərin innovasiyayönümlü potensialının aşkarlanması, komanda quruculuğu bacarıqlarının təkmilləşdirilməsi və innovasiya ekosistemində iştirakının artırılması məqsədi daşıyır: "İki gün davam edən yarışmada 21 ali təhsil müəssəsinin kompüter elmləri və mühəndislik ixtisasları üzrə təhsil alan tələbələrdən ibarət 30 komanda iştirak edib".

Daha sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, müstəqil Azərbaycanın bugünkü inkişaf səviyyəsinə çatmasında, dünya birliyində layiqli yer tutmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olub: "Bu dahi şəxsiyyət ölkəmizdə iqtisadiyyatın, elm, təhsil və mədəniyyətin tərəqqisini təmin edib, gələcək inkişaf üçün güclü təməl yaradıb. Ümummilli Lider hər zaman gənclərə diqqət və qayğı ilə yanaşıb, gənclər siyasətinin inkişafı ilə bağlı tarixi qərarlar qəbul edib".

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən nazir qeyd edib ki, ölkəmizdə gənclər siyasəti və təhsilin inkişafı ilə bağlı çoxsaylı proqram və layihələr həyata keçirilib, yeni strategiya və konsepsiyalar qəbul edilib. İstedadlı və yaradıcı gənclərin üzə çıxarılması və dəstəklənməsi sahəsində əhəmiyyətli addımlar atılıb.

Emin Əmrullayevin sözlərinə görə, həyatın bütün sahələrində gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib, könüllülük hərəkatı genişlənib. "Azərbaycan gəncliyi" dövlət proqramlarının uğurla həyata keçirilməsi, Azərbaycan Prezidenti yanında Gənclər Fondunun yaradılması gənclərin hərtərəfli inkişafını stimullaşdırıb: "Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş xaricdə təhsil ənənəsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində ümumilikdə 3558 nəfər gənc Dövlət Neft Fondu hesabına maliyyələşdirilməklə dünyanın aparıcı universitetlərində təhsil alıb, onların böyük əksəriyyəti ölkəmizə qayıdıb, hazırda dövlət və özəl sektorda uğurla fəaliyyət göstərirlər".

Nazir diqqətə çatdırıb ki, "2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na dünyanın aparıcı universitetləri ilə birgə informasiya texnologiyaları, kompüter elmləri, mühəndislik, biotexnologiya, təhsil və insan kapitalının inkişafı sahələri üzrə 5 beynəlxalq ikili diplom proqramına başlanıb: "Həmin proqramlar çərçivəsində ümumilikdə 1004 tələbə təhsil almaq hüququ qazanıb. Eyni zamanda, Proqram çərçivəsində 251 doktorant dünyanın aparıcı universitetlərində və elmi mərkəzlərində təhsil almaq hüququ əldə edib. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində hər il 400 nəfər olmaqla, ümumilikdə 2000 nəfərədək vətəndaşımızın xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması nəzərdə tutulub.



*"Heydər Əliyev İli" çərçivəsində YAP Mərkəzi Aparatı və ADNSU-nun birgə təşkilatçılığı ilə tədbir keçirilib*

Ötən 2 il ərzində 717 nəfər təqaüd almaq hüququ qazanıb. Bununla yanaşı, 2003-2023-cü illərdə Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində 4118 nəfər xaricdə təhsil almaq hüququ qazanıb. Ali təhsilin inkişafı sahəsində həyata keçirilən tədbirlər nəticəsində ali məktəblərə qəbul olunan tələbələrin sayı 2003-cü ilə nisbətən təxminən 3 dəfə artıb, cari ildə 65 min 760 nəfər təşkil edib. Həmin dövrdə təhsil alan tələbə sayı isə təxminən 2 dəfə artaraq 120 mindən 220 minə çatıb".

Emin Əmrullayevin sözlərinə görə, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu ölkəmizdə elm, təhsil, mədəniyyət və gənclər siyasətinin inkişafına, milli-mənəvi dəyərlərimizin, zəngin mədəni irsimizin qorunub saxlanılması və təbliğinə böyük töhfələr verib.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev çıxışında bildirib ki, müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti dövründə ətraf mühit məsələləri həmişə xüsusi diqqət mərkəzində olub. Heydər Əliyevin uzaqgörən siyasəti, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyən etdiyi prioritetlər bu gün həyata keçirilən mühüm tədbirlər, o cümlədən gənc mütəxəssislərin yetişdirilməsi üçün zəmin yaradıb. Onun sözlərinə görə, bu gün dünyanın üzləşdiyi çağırışlar qarşısında daha dayanıqlı gələcək qurmaq üçün baş vermiş və gözlənilən dəyişmələrə uyğunlaşmaq vacibdir. İstiqamət isə Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prirotetlər» sənədində əksini tapır. Sənədə əsasən beşinci prioritet təmiz ətraf mühit və yaşıl artım ölkəsi ilə bağlıdır.

Nazir qeyd edib ki, Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf gənclər üçün yeni imkanlar açır: "Gənclərin ekoloji məsələlərlə bağlı proseslərə cəlb edilməsi onların ətraf mühitin mühafizəsində növbəti nəslin liderlərinə çevrilməsi ilə nəticələnməlidir. Bildiyiniz kimi, iqlim dəyişmələri fəsadları bütün dünyada olduğu kimi, Azərbaycanda da müşahidə olunmaqdadır. Bir tərəfdən quraqlıq və su çatızmazlığı, digər tərəfdən sel-daşqınlar ölkə iqtisadiyyatına və əhaliyə təsir göstərir. Buna görə iqlim dəyişmələri ilə bağlı mənfi təsirləri yumşaltmaq, bəzi hallarda uyğunlaşma yolu ilə hətta faydalanmaq istiqamətində yeni kreativ yanaşmaların tətbiqi zamanıdır. Bu gün tərəfimizdən rəqəmsal texnoloji həllərdən və coğrafi informasiya sistemlərindən aktiv şəkildə istifadə olunur. Bütün bu texnoloji həllər gənc mütəxəssislərimiz tərəfindən hazırlanır və tətbiq edilir. Sevindirici haldır ki, bu il gənclərdən ibarət komandamız tərəfindən yenilikçi veb-texnologiyalar əsasında yaradılan "Yaşıl Gələcək" platforması uğurlu korporativ sosial məsuliyyət müstəvisinə çevrilə bilib. Ağac əkilməsi üçün ianə edib, sertifikat əldə edə biləcəyiniz bu platforma çərçivəsində tərəfdaşlıq etdiyimiz qurumlar və fərdi istifadəçilər tərəfindən artıq 50 minə yaxın ağac əkilib. Hazırda komandamızda dövlət, özəl sektor, qeyri-hökumət təşkilatları və elmi sektorda təmsil olunan gənclərimiz, ətraf mühit sahəsində öz biliklərini təkmilləşdirən və ekoloji kampaniyalarda aktiv iştirak edən yüzlərlə fəal gənc könüllülər var".

Muxtar Babayev onu da deyib ki, hakaton çərçivəsində keçirilən yarışlarda gənclərin ətraf mühit ilə bağlı problemlərin öz həll yollarını təklif etməsi, bu müsabiqədə innovativ və yaradıcı ideyaların yaranması sevindirici haldır.

Çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, Ulu Öndər Heydər Əliyev gənclərə daim böyük inam və etimad hissi ilə yanaşıb. Ulu Öndər istər Azərbaycana ilk rəhbərliyi, istərsə də ikinci dəfə hakimiyyəti dövründə gənclərin təhsili və inkişafı, onların potensialından səmərəli istifadə istiqamətində mühüm addımlar atıb. "Ulu Öndər 1998-ci ildə çıxışlarının birində ümidvar olduğunu bildirib ki, Azərbaycan qadınları Azərbaycan Ordusunu daha da gücləndirmək və qüdrətli etmək üçün vətən yolunda həlak olmağa hazır övladlar böyüdəcəklər. Həmin gənclik Prezident İlham Əliyevin rəhbərliyi dövründə yetişdi və onun komandanlığı altında işğal altında olan torpaqlarımızı azad, suverenliyimizi bərpa etdi",-deyən Rəşad Nəbiyevin sözlərinə görə, artıq Azərbaycanda yeni mərhələ başlayıb. Bu mərhələ Böyük Qayıdış və bərpa-quruculuq dövrüdür. Bu gün quruculuq prosesi yalnız işğaldan azad olunmuş ərazilərimizdə apardığımız işləri əhatə etmir. Bizim qarşımızda həm də innovativ cəmiyyət qurmaq hədəfi var. Bu, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində əksini tapıb.

Nazir deyib ki, Azərbaycanda gedən quruculuq prosesinin – istər işğaldan azad olunmuş ərazilərdə, istərsə də innovativ cəmiyyət yaradılması istiqamətində aparılan işlərin əsasında gənclər dayanır. Sürətlə dəyişən qlobal trendləri izləyərkən görürük ki, gənclərin çeviklik və uyğunlaşma bacarığının inkişaf etdirilməsi vacib amillərdən biridir. Onun fikrincə, "Mühəndislik hakatonu" kimi intellektual yarışların təşkili də bu məqsədə xidmət edir: "Mən rayonlarda gənclərlə görüşlərimdə bir daha şahidi oluram ki, hər bir şəhər və kəndimizdə texnologiyaya maraq göstərən istedadlı gənclərimiz var. Bizim rolumuz isə onları aşkarlamaq və potensialını ortaya qoymağa şərait yaratmaqdır".

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev çıxışında dünyanın dördüncü sənaye inqilabı dövründə yaşadığını bildirib: "Belə bir dövrdə bizim üzərimizə düşən əsas vəzifə transformasiya ərəfəsində ölkəmizin inkişafını təmin etməkdir. İnnovasiyalar və müasir texnologiyalar sahələrində Azərbaycan heç də digər ölkələrdən geri qalmır. Ulu Öndər Heydər Əliyev 1998-ci ildə - bu gün bizim istifadə etdiyimiz texnologiyaların mövcud olmadığı zaman - Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı strategiya müəyyənləşdirib. Bundan sonra imzalanan fərman və sərəncamlar da onu göstərir ki, Azərbaycanda hələ müstəqilliyinin ilk illərində, Ulu Öndərin hakimiyyəti dövründə innovasiyaların, müasir texnologiyalarının inkişafı istiqamətində ciddi, ardıcıl dövlət siyasəti həyata keçirilib. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ölkəmiz mühüm nailiyyətlər qazanır".

ADNSU-nun doktorantı Nuranə Abdullayeva Azərbaycan gəncliyinin qarşıya qoyulan vəzifələri yerinə yetirməyə, onlara göstərilən etimadı hər zaman doğrultmağa çalışdığını deyib. O qeyd edib ki, gənclik hər bir ölkənin gələcəyinin təməlidir: "Gəncliyin yüksək intellektual biliyə, sağlam ruh və bədənə malik olması, mənəvi və milli dəyərlərə sədaqət ruhunda tərbiyə edilməsi prioritet istiqamətlərdəndir. Atılan addımlar gənclərin mütəşəkkil bir qüvvə kimi formalaşmasına, onların mənəvi və ideoloji cəhətdən tam yetkinləşməsinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərir".

ADNSU-nun 3-cü kurs tələbəsi, Tələbə Gənclər Təşkilatının Sədri Cavanşir Abdullayev isə çıxışında bildirib ki, gənclərin daim inkişaf etməsi və cəmiyyət həyatında öz layiqli yerini tutması məhz Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin inamla davam etdirdiyi gənclər siyasətinin nəticəsidir. Onun sözlərinə görə, Azərbaycan gəncliyinin sağlam yetişməsi üçün görülən işlər, eləcə də gənclərə göstərilən diqqət və qayğı göz önündədir: "Müxtəlif sahələrdə gənc kadrların yetişməsi, gənclərin milli və vətənpərvərlik ruhunda, vətənə layiqli şəxsiyyət kimi böyüməsi başlıca vəzifələrdəndir və bu istiqamətdə hər birimiz üzərimizə düşənlərin öhdəsindən gəlməyi bacarmalıyıq".

Sonra "Heydər Əliyev – 100: Mühəndislik hakatonu" intellektual yarışının qalibləri - Nəqliyyat və Logistika istiqaməti üzrə "Azərbaycan Dövlət Neft və Sənaye Universiteti - 2", Ekologiya və Ətraf mühit istiqaməti üzrə "Azərbaycan Dövlət Neft və Sənaye Universiteti - 3", İnnovasiya və Texnologiya istiqaməti üzrə "Bakı Ali Neft Məktəbi -1" komandaları mükafatlandırılıb.

"Heydər Əliyev – 100: Mühəndislik hakatonu"nun təşkilində göstərdiyi dəstəyə görə isə Kapital Bankın İstedadların idarə edilməsi departamentinin direktoru Aygün Musayevaya təşəkkürnamə təqdim olunub. Tədbir bədii hissə ilə davam edib. Sonda xatirə fotosu çəkdirilib.

# Paris və İrəvan silahı seçir

*Fransanın Ermənistanı silahlandırmasının əsl səbəbi bilindi*



Ermənistan yenə silahlanır, bu dəfə Fransanın dəstəyi ilə. Məqsəd nədir, əvəzçıxma, yoxsa Fransanın arzularını gerçəkləşdirmək? Rusiyanın Cənubi Qafqazdan çıxarılması planı hələ də işlək vəziyyətdədir. Yeni koloniyalar yaratmaq, ərazilər ələ keçirmək, Fransanın əzəli siyasətini davam etdirmək rəsmi Parisin böyük planına daxildir. Görəsən, uzun illər Ermənistanda kök atmış Rusiyanı əraziləri tərk etməyə kimsə məcbur edə biləcəkmi? Bəli, Ermənistanın BMT tərəfindən tanınmış, amma Azərbaycanın rəsmi olaraq hələlik tanımadığı inzibati ərazisi var və Rusiya hərbi kontingentini çıxarmaqda sərbəstdir. Amma

Məsələ burasındadır ki, Ermənistan de-yure bunu edə bilməz. Çünki Rusiya ilə 49 illik müqaviləsi var. Sənədə əsasən, Rusiyanın hərbi bazasından qarşılıqlı razılaşmalar Kollektiv Təhlükəsizlik Paktının 15 may 1992-ci il tarixli sazişi, Rusiya və Ermənistanın müdafiə nazirlikləri arasında "Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Yardıma" dair 29 avqust 1997-ci il tarixli sazişi, həmçinin iki ölkənin qanunvericilik aktlarının əsasında istifadə olunması nəzərdə tutulur. Protokolda bildirilir ki, müqavilə 49 illiyə bağlanır. Lakin bu müddətdən sonra tərəflərdən heç biri saziş müddətinin bitməsinə altı ay qalmışadək yeni mövqe nümayiş etdirməzsə, müqavilənin müddəti avtomatik olaraq 5 il uzadılır. Protokolları hər iki tərəf ratifikasiya edib. Belə şərtlər daxilində kimsə Rusiyanı Ermənistandan çıxara bilərmi? Qanun da, müqavilə də Fransanın, Qərbin arzu və istəyinin əlehinədir. Bir yol qalır, Rusiyanın Gümrüdə və Erebuni hava limanındakı bazalarını və FTX-nin sərhəd qoşunlarını zorla çıxarmaq, müharibə etmək.

Bu arada Ermənistanın müdafiə naziri Suren Papikyan fransız həmkarı Sebastyan Lekornunun dəvəti ilə Fransaya səfərə gedib. Səfər zamanı Ermənistan və Fransa arasında hərbi təchizatla bağlı müqavilə imzalayacağını gözlənilir. Cənubi Qafqazda maraqlarını İrəvan üzərindən diktə etməyə çalışan Fransanın ilkin hədəfi Rusiyanı Ermənistandan sıxışdırmaqdır. Bu məqsədlə Rusiyanın Ermənistanın "təhlükəsizliyinin təmin edilməsi"ndəki rolunu almaq istəyir. Paşinyanın Strarburqda son çıxışı da o deməkdir ki, Ermənistan "təhlükəsizlik müttəfiqlərini" dəyişmək niyyətindədir. Lakin bu necə baş verəcək, Ermənistan Rusiyadan və KTMT-dən necə imtina edəcək?

44 günlük müharibədən sonra rəsmi İrəvan "bəhanə" toplamaqla məşğuldur. Ermənistan hakimiyyətinin KTMT-dən çıxmaq – Rusiyadan imtina etməsi üçün daha ciddi hadisə baş verməlidir. Bunun üçün Moskvanı "fakt qarşısında" qoymaq lazımdır. Bura daxili ictimai rəy və ictimai dəstək də əlavə edilməlidir. Məsələn, Ermənistan-Azərbaycan sərhədində növbəti və qanlı eskalasiya da Rusiyanın hərbi



mövcudluğunu sonlandıra bilər. Ssenaridə İrəvanın Rusiya və KTMT-yə qarşı ittihamlarını yeniləmək kimi addımlar da yer alıb. Fransanın Ermənistana verdiyi silahların Azərbaycana tuşlanacağı, sərhəd toqquşmasında istifadə ediləcəyi bəllidir. Erməni separatizminin ləğvindən sonra Qərbdə "Azərbaycanın Ermənistana hücum hazırlığı" haqda aparılan siyasi-informasiya kampaniyası da bu kontekstdə təsadüfi deyil. Ermənistandan Rusiyaya qarşı yeni cəbhə açmaq planı qüvvədədir.

Fransanın Ermənistana hücum silahları da satacağı artıq gizliliyini itirir. Paris hesab edir ki, Azərbaycan ordusu Qarabağdan sonra Qərbi Zəngəzura istiqamətlənəcək və bu məqsədlə Ermənistanın müdafiəsini gücləndirmək lazımdır. Başqa ölkələrdə də fransızlar kimi düşünənlər var.

### Fransanın qorxulu yuxusu - ərəb payızı

Fransa Afrikadan qovulur. "Qara qitə"dən Parisə ünvanlanan əksər xəbərlər mənfi yüklüdür. HƏMAS yaraqlılarının İsrailə qarşı qanlı basqını da bir tərəfdən Fransada gərginliyi artırıb. Arrasda məktəbə hücum, fələstinlilərə dəstək nümayişləri üçün əvvəlcə qadağan edilmiş, sonra icazə verilmiş nümayişlər, islamçılara nəzarətin gücləndirilməsi, solçu düşərgədə ixtilaf və parçalanma, yalançı mina xəbərdarlığı səbəbiylə məktəblərin, muzeylərin və hava limanlarının davamlı olaraq bağlanması "oktyabr hadisələri"nin kiçik bir hissəsidir. Fransada HƏMAS silahlıları tərəfindən İsrail ərazisində əsir götürülən girovların taleyindən danışmağa davam edirlər. Terrorçuların vəhşiliyinin səbəb olduğu anlaşılan hiddətlə yanaşı, ölkənin maraqlarına birbaşa toxunulur. Fransanın onsuz da ayaqlar altında qalan qüruru bir daha alçaldılır.

Öldürülən Fransa vətəndaşlarının sayı 30-a çatıb və 7 nəfərin girov götürüldüyü ehtimal edilir. Onların qohumları yaxınlarının xilası üçün Fransa prezidenti Emmanuel Makrona müraciət edib və prezident buna cavab olaraq həmvətənlərinin "sağ və sağlam" qayıtması üçün əlindən gələni edəcəyinə söz verib. Aydındır ki, Fransa Qəzza zolağında öz xüsusi təyinatlılarından istifadə etmək niyyətində deyil, onun bölmələrindən biri dəqiq olaraq girovları azad etmək niyyətindədir, amma bu əməliyyatın sonu barədə nikbin düşünənlər az olduğu kimi, Fransanın imicinə nə qədər ziyan vurulacağı da hesaba alınmalıdır. HƏMAS rəhbərliyi onların taleyi ilə bağlı danışıqlardan maksimum fayda əldə etməyə çalışacaq, çünki əsirlərin həyatı və ölümü indi onun əlindədir.

Fransada Daxili İşlər Nazirliyi tərəfindən qadağan edilən və buna görə də dağıdılan Fələstin tərəfdarının nümayişlərin keçirilməsinə bir neçə cəhddən sonra, nəhayət, onlardan biri Parisdə qanuni şəkildə keçirilə bildi. Oktyabrın 19-u axşam məhkəmə "xüsusi zorakılıq riski" görmədiyi üçün nümayişə icazə verdi və artıq su şırnaqlarının altında qalmağa hazırlaşan nümayişçilər Respublika meydanında qala bildilər. Deməli, hakimiyyətin fikrinə diametral şəkildə zidd olan münaqişəyə öz münasibətini bildirirlər.

HƏMAS-ı qınamaq istəməməsi və yalnız Fələstin xalqının "azadlıq mübarizəsi" haqqında danışmaq cəhdi, görünür, parlament koalisiyasında ifrat solçu Fransa Müxalif (LFI) birliyinin liderlərinə baha başa gəlib. Jan-Lyuk Melenxon tərəfindən yığılmış solçu siyasi blok NUPES dağılmaq riski altındadır. Onsuz da kommunistlər, sosialistlər və yaşıllar onu tərk etməkdən danışırlar.

Fələstinlilərin 1980-ci illərdəki partlayış və atışma vaxtlarının Parisə qayıdacağına dair qorxular indiyə qədər özünü doğrultmayıb. Peşəkar terrorizm indi Yaxın Şərqə yönəlib. Ancaq kənar göstərişlər olmadan belə hərəkətə keçməyi bacaran təhlükəli "tənha canavarların" sayı artır. Fransa Daxili İşlər Nazirliyi antisemitizm xarakterli hərəkətlərin hesabını aparır və onların sayı getdikcə artır. Rusiya Federasiyasından olan mühacirlərin adları kriminal xronikada yer alıb. Oktyabrın 13-də Arras şəhərində 20 yaşlı inquşiyalı Məhəmməd Moquşkov vaxtilə oxuduğu məktəbdə müəllimini öldürüb və sonda dəmir barmaqlıqlar arxasına düşüb.

Oktyabrın 20-də Strasburqda 15 yaşlı çeçen yeniyetmə də saxlanılıb, o, təbii ki, bununla pis bir söz demək istəməyərək şəhər sinaqoqunun hasarında bıçaq itiləyib. Həmin gün terrorçu tərəfindən öldürülən, ölümündən sonra Fəxri Legion ordeni ilə təltif edilmiş 57 yaşlı müəllim Dominik Bernardın izdihamlı dəfn mərasimində onlar da üç il əvvəl müəllim Samuel Patinin 19 yaşlı çeçen Abdulla Anzorov tərəfindən necə öldürüldüyünü xatırladılar.

Ölkə Rusiya Federasiyasından islamçıların ixracının təhlükəsindən danışmağa başlayıb və daxili işlər naziri Gerald Darmanin hətta Fransa üçün təhlükə yaradanları Rusiyaya qovacağına söz verib. O bildirib ki, Şimali Qafqazdan olan 60 təhlükəli mühacir artıq həbsdədir və müvafiq olaraq azadlığa buraxıldıqdan sonra deportasiya olunacaqlar. Nazirin istəyi başa düşülən olsa da, həyata keçirilməsi çətindir. Mühacirlərin Fransadan qovulması üçün onların vətəni, indiki halda Rusiya onları qəbul etməyə razı olmalıdır. Rusiya-Ukrayna müharibəsinin başlanması ilə nəinki Rusiya Federasiyasına deportasiya dayandırılıb, Rusiya hakimiyyətinin bununla razılaşacağını təsəvvür etmək çətindir. Baxmayaraq ki, prezident Makron daxili işlər naziri Darmaninə bununla bağlı danışıqlar aparmaq səlahiyyətini verib. Sonuncu dəfə Samuel Patinin öldürülməsindən sonra eyni tədbirləri görmək istəsələr də heç bir razılıq əldə olunmayıb. Buna baxmayaraq, söhbət yenidən başlayır.

Sağ və ifrat sağçılar uzun müddətdir ki, siyahıdakı bütün əcnəbilərin kütləvi şəkildə ölkədən çıxarılmasını təklif ediblər. Belə bir tədbir ilk baxışdan məntiqli görünsə də, onun həyata keçirilməsində təkcə potensial terrorçuların Fransaya gəldiyi ölkələrin razılığı deyil, bir sıra problemlər yaradır. Siyahı əsasən xüsusi xidmətlər tərəfindən doldurulur, ona daxil edilmə məhkəmənin qərarı ilə deyil, dəqiq və ya olmayan kəşfiyyat məlumatlarının miqdarına dair idarə göstərişləri ilə baş verir. Siyahıda islamçılar və ağ supremasistlər, radikalları dəstəkləyən iş adamları, qara blokdan olan küçə xuliqanları, hətta dost olmayan ölkələrin jurnalistləri də var. Buna görə də, siyahıya əlavə olaraq, radikallaşmaya, o cümlədən terrorizmə meylli insanları təyin edən FSPRT etiketi də təqdim edilib. Daxili İşlər Nazirliyinin məlumatına görə, Fransada hazırda bu siyahıda 20120 nəfər, potensial terrorçuların bütöv bir bölməsi var və onlardan yalnız 4263 nəfəri əcnəbidir.

Oktyabr Fransa üçün həm də "telefon terrorizmi"nin artması ilə yadda qalıb. Gün keçmir ki, məktəblər, hava limanları və Luvr və Versal Sarayı da daxil olmaqla Fransanın böyük muzeyləri mədəniyyətlə bağlı mesajlar almasınlar. Şənbə günü, oktyabrın 21-də Versalda son həftədə altıncı dəfə daha bir evakuasiya həyata keçirilib. Fransa hava limanları da fəaliyyətini dayandırmağa məcbur olub. Dəfələrlə məktəblər bağlanıb. Prankerlər, əksər hallarda yetkinlik yaşına çatmayanlar tutulur və getdikcə daha çox təkcə "dezinformatorlar" deyil, terrorun ortaqları hesab olunurlar. Həyəcan siqnalları isə ara vermir.

Fransa Ermənistana silah tədarükü görməyə hazırlaşır. Silah nə vaxtsa partlamalıdır, gerçəkliyini də unutmaq olmaz. Silahlar Cənubi Qafqaza, daha doğrusu Ermənistana gəldimi, onun işə düşəcəyini də gözləmək olar. Fransanın Müdafiə Nazirliyi bu silahların müdafiə xarakterli olduğunu deyir, amma ondan həm də hücum niyyəti ilə istifadə oluna biləcəyindən danışmır. Adını nə qoyurlarsa qoysunlar, Fransanın Cənubi Qafqazla bağlı siyasətindən müharibə qoxusu gəlir. Ermənistan necə, bu hadisələrə hazırdırmı?

**V.VƏLİYEV**

## Media nümayəndələrinin Çinə səfəri təşkil olunub



Çin Xalq Respublikasının Azərbaycan səfirliyinin təşəbbüsü ilə "Bir kəmər, bir yol" layihəsinin 10 illiyi münasibətilə Çinə media-tur təşkil edilib. SİA xəbər verir ki, 12 media təmsilçisinin iştirak etdiyi səfər çərçivəsində Çinin 3 şəhərində tanışlıq və müxtəlif görüşlər keçiriləcək.

KİV nümayəndələri ilk olaraq Çinin Urumçi şəhərinə gəliblər və burada Urumçi Planlaşdırma Muzeyini ziyarət ediblər. Daha sonra onlar "Terrorla mübarizə və radikalizmlə mübarizə" mövzusunda sərgilərə tamaşa ediblər.

Media nümayəndələri günün sonuna kimi Çində Sincan İncəsənət İnstitutunu, GAC (Guangzhou Automobile Group) Group-un Sincan filialını, eləcə də Asia Innovative Energy Co. Ltd-ni ziyarət edəcəklər. Xatırladaq ki, səfər oktyabrın 22-dən 30-dək davam edəcək.

# Bir yastıqda qocalırıqmı?..



***Hər birimiz yeni həyata qədəm qoyarkən böyüklərimizin "Bir yastıqda qocalasınız" kimi dəyərli tövsiyəni eşidirik. Bir yastıqda qocalmaq özündə dərin bir mənanı ehtiva edir. Bura ailə dəyərlərimizlə bağlı xüsusiyyətlərdən tutmuş ailənin uzunömürlülüyü, mehribanlıq, sədaqət, qarşılıqlı hörmət daxildir.***






Bir yastıqda qocalmaq dünyanın gözəlliklərinin birincisidir. Bir-birini sevən, bir-birinə hörmət hissi olan insanların bölüşdüyü həyatdır. Başladıqları yeni bir yolu uğurla addımlamaqdır. Onları mənzilbaşına aparan yoldur. Nə var mənzil başında? Əlbəttə ki, yaşlılıq, övladlar, nəvə-nəticələr. Və bir də hər kəs öz yoluna davam edəndən sonra ömrün yoldaşa ehtiyac duyduğu qalan hissəsi...

Bir yastıqda qocalmaq bu qədər gözəllikləri özündə cəmləşdirdiyi halda biz necə, bu ifadənin haqqını verə bilirikmi? Bir yastıqda qocalmaq üçün mübarizə aparırıqmı? Yoxsa yastıqları ayırmaqla həyatımızı da ayırır, ailəni dağıdır, hətta uşaqları da malmülkümüz kimi bölüşürük? Belə isə bir qədər bir yastıqda qocalmaq məsələsinə diqqət çəkək.

## Boşanmağa gedən yol: yatağı ayırmaq

Bəzən iddialarımız, bəzən qürurumuz, bəzənsə sadəcə düşüncə zəifliyimiz ucbatından bir ömür peşman oluruq. Söz yox ki, iki şəxs bir evdə yaşayırsa, hansısa səbəblərdən kiçik incikliklər olacaq. Lakin bu, o demək deyil ki, yataq ayrılmalıdır. Lakin ayırırıq. Kin, iddia, düşüncəsizliklə etdiyimiz bir hərəkət bütün problemlərin başlanmasına şərait yaradır. Yatağı ayırmaq küsülülüyün, tərəflər arasında kin yaranmasına, söz-söhbətin uzanmasına səbəb olur.

Anamın qoca bir nənəsi varmış. Anam deyərdi ki, həmin nənə onlara belə məsləhət verərmiş ki, həyat yoldaşınızla aranızda hər hansı bir inciklik yarananda qəti şəkildə yatağınızı tərk etməyin. Onsuz da ər-arvadın dalaşmağı yaz yağışı kimidir. Yazda teztez hava buludlanır, yağış ələnir, az sonra günəş doğur. Heç elə bir səhərdən nərildəyən-guruldayan hava deyilmiş. Bax, ərarvad da belədir. Lakin yatağı ayıranda, artıq o yaz yağışından sonrakı günəş doğmaya bilər. Odur ki, nə qədər söz-söhbətiniz olsa da, yatağınızı tərk etməyin. Üzünüzü həyat yoldaşınıza tərəfə deyil, o yana çevirin, lakin yatağınızı ayırmayın.

Nəinki bu sözləri deyəm həmin rəhmətlik nənə, evlərimizdəki bütün nənələr eyni fikirdə olublar. Elə "bir yastıqda qocalın" deyimi də bax, belə ailə təcrübələrinə əsaslanaraq yaranıb.

Bəli, ailələrimizin uzunömürlü olması, boşanmaların sayının artmaması məhz bir yastığı paylaşmağı bacarmaqdan çox asılıdır. Bu yastıq mehribanlığın, hörmətin, səmimiyyətin, doğmalığın ünvanıdır. Bu ünvandan uzaqlaşmaq boşanmaların sayının artmasına, bu ünvana sadiq qalmaq ailənin uzunömürlülüyünə səbəb olan amildir.

## Yatağı ayırmaqda günahkar tərəf: qadın

Etiraf edək ki, yatağı ayıran tərəf çox halda qadın olur. Bununla bağlı bir sorğu keçirsək, əminəm ki, dediklərimiz təsdiq olunar. Çünki qadın küsəyən, nazının çəkilməsini arzulayan varlıqdır. Ona görə də bu məsələdə kişilər bir az ayıq-sayıq olmalıdır. Hər hansı qadın belə bir səhvə yol verəndə onun qarşısını almalı, kin-küdurətin uzanmasına yol verməməlidir. Əks təqdirdə soyuq münasibət gündən-günə dərinləşir və boşanmaya doğru ilkin addım atılır.

Desək ki, elə bir şərait yaratmaq lazım deyil ki, ər-arvaddan hər hansı incisin, küssün, bu, bir qədər yerinə düşməyəcək. Çünki söz-söhbət istər-istəməz ortaya çıxır. İki nəfər bir həyatı, bir evi paylaşırsa, kiçik də olsa, bir inciklik meydana gəlir. Lakin bu, o mənaya gəlmir ki, incimisən, küsmüsənsə, otağını tərk etməli, yatağından uzaqlaşmalısan. Bu, qəti şəkildə yolverilməz olmalıdır. Bir də tərəflərdən hər hansı bağışlamağı, anlamağı bacarmalıdır. Xüsusilə də bu məsələdə qürur düşmən mövqedə dayanır, bunu unutmayaq...

## Bağışlamaq mədəniyyətdir

Bağışlamaq isə böyük mədəniyyətdir. Hətta üzr istəmək bundan da böyük mədəniyyətin göstəricisidir. Belə isə nə üçün bizə bəzi hallarda "üzr istəyirəm" sözünü demək ağır gəlir. Əslində, səhv edən 1-2 saat sonra, yeni gərginliyi, əsəbiliyi ötəndən sonra günahkar olduğunu anlayır. Belə olan halda nə üçün üzr istəməyək, bağışlanmağımızı xahiş etməyək?

Dəfələrlə tərəflərdən birini dinləyərkən, günahın onda olduğunu anlayaraq üzr istəməsini məsləhət görmüşük. Lakin müşahidə edirik ki, günahı olmasına baxmayaraq, özünü günahkar saymayanlar var. Və yaxud da bilə-bilə ki, günahkardır, hansı ki, bunu etiraf da edir, lakin "üzr istəmərəm",- deyib durur. Bax, boşanmaya aparan, ailənin dağılmasına səbəb olan amillərdən ən başlıcası da budur.

Bəli, bağışlanması çətinlik yaradan məsələlər də var, təbii ki. Lakin ailənin qorunması naminə hər iki tərəf buna cəhd etməlidir. Yatağı ayırmamaqla, səbrlə məsələləri çözməklə, bacardığımız qədər ailənin dağılmasına yol verməməliyik.

Yuxarıda məsləhətlərindən söhbət açdığım həmin nənə bir məsələni də tövsiyə edirmiş ki, evdə söz-söhbət olanda, evinizi heç vaxt tərk etməyin. Ev dörd divardan, dörd küncdən ibarətdir. Hər dəfə bir inciklik və ya problem olanda bir küncə küsün. Üz tutduğunuz künclər bitəndə, artıq bu evdə yaşamağın mümkünsüz olduğunu təsdiq edəndən sonra evi tərk etmək olar.

Çox gözəl məsləhətdir, deyilmi? Bəli, hər biri bir cavahir dəyərində olan babanənə, ata nəsihətlərimiz hər zaman qulağımızda sırğa, çıxdığımız yolda bələdçi olarsa, ailələrimiz qorunar, mehriban, səmimi, qarşılıqlı hörmət şəraitində ailə dəyərlərini də yaşatmış olaraq.





### Uşaq körpüdür

Müasir dövrdə gənclər ailə qurduqdan bir neçə il sonraya uşaq dünyaya gətirməyi planlaşdırır. Lakin bu, heç də müsbət seçim deyil. Ailə qurmusansa, ailə həyatına başlamısan, deməkdir. Ailə həyatının vaz keçilməz olanı isə uşaqdır. Uşağın ər-arvad arasında körpü olduğunu nəzərə alaraq, uşaq nə qədər tez olarsa, ailənin təməlini möhkəmləmiş olduğunu da vurğulamaq lazımdır.

Uşaq olan yerdə söz-söhbət azalır, mehribançılıq olur. Həm də uşaq ər-arvad arasında yaranan incikliyin də aradan qalxma səbəbidir. Çünki uşağa görə tərəflər çox halda bir-birilərini bağışlaya bilir. Uşağın xətrinə hər hansı bir səhvi böyüdüb problem şəklinə salmırlar.

Düzdür, ailələr var ki, hətta uşaq da onların münasibətlərinə körpü sala bilmir. Deməli, bu ailə səhv şərtlər əsasında qurulub. Burada sevgi kimi, qarşılıqlı hörmət, birgəyaşayış amili də yoxdur. Belə olan şəkildə təbii ki, belə ailələrin ömrü də qısa olacaq. Lakin olmazmı ki, sonra yaranacaq problemləri bəri başdan görə bilək?

Bu məsələdə isə valideynlərin rolu daha böyük olur. İstər qızın, istərsə də oğlanın ata-ana istəyi, tələbi ilə ailə qurması sözsüz, çox halda bax, bu problemlərin yaranmasına gətirib çıxarır. Dünyanı məhəbbət xilas edir deyirik, ailənin də xilaskarı sevgidir. Odur ki, gənclərin bir-birilərini sevdikləri, anladıqları, tanıdıqları üçün ailə qurmalarının tərəfində olaq, qızımızın imkanlı kişinin oğlu, oğlumuzu dostumuzun qızı ilə evlənməsinin, gəncləri anaların öz aralarında alış-veriş mexanizminə çevirmələri tərəfində yox. Bax, ikinci tərəfi uşaq da xilas etmir. Bunu həyat dəfələrlə qarşımıza çıxarıb.





### Bir yastıqdan məhkəməyə

Təəssüfedici haldır ki, “Bir yastıqda qocalın” deyimini sanki eşitməmiş kimi bir də baxırıq ki, səsimiz məhkəmələrdən gəlir. Bəlkə səhvim var, artıq qurulan ailələrə “bir yastıqda qocalın” deyən yoxdur. Bəlkə müasirləşməyimiz bir çox dəyərlərimiz kimi, bu deyimi də artıq lazımsız əşya kimi bir küncə tullayıb. Bəlkə məhkəmə divarlarındakı sərtliyi, soyuqluğu bir yastığın istiliyindən və yumşaqlığından üstün tutmağa başlamışıq.

Bilmirəm belədir, yoxsa belə deyil, lakin qurulan ailələrin fonunda boşanmaların sayı məni bir vətəndaş kimi çox narahat edir. Rəsmi məlumata əsasən bu ilin yanvar-iyulunda 29191 nikah və 12610 boşanma halları qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 6,1-dən 4,9-a düşüb, boşanmaların sayı isə 1,5-dən 2,1-ə qədər artıb.

Bu gün Azərbaycanda boşanmaların sayı artıq qorxunc dərəcədədir. Elə yuxarıdakı rəqəmlər az qalıb ki, bir nikaha bir boşanma şəklinə gəlsin. Bu isə dəhşətdir. Bunun üçün əməlli-başlı narahat olmağa dəyər. Lakin aid qurumlar hələ də bunun qarşısını almaqda çətinlik çəkirlər. Nə üçün? Bunu yəqin özləri bizdən yaxşı bilərlər.

### 60 yaşında bir yastıqdan vaz keçənlər

Araşdırma zamanı qarşıma çıxan başqa bir statistika isə, sözün həqiqi mənasında, dözülməzdir: 2022-ci ildə Azərbaycanda ümumilikdə 15983 boşanma olub ki, bunlardan da 528-i 60 və yuxarı yaşda olan kişilər, 274-ü isə eyni yaş qrupunda olan qadınlar arasında qeydə alınıb. Bu, 35-40 illik ailələrin dağılması deməkdir. Bu, öz ailəsi olan övladlarının gözü qarşısında ailəni dağıtmaqla onlara pis nümunə olmaq deməkdir. Bu, orta yaşlı qadın-kişilərin nəvə oynatmalı, birlikdə gəzdirmələri olduğu halda məhkəməyə müraciət etmələri, min şirini bir acıya dəyişmələri deməkdir.

60 yaşlı insanın bu yaşda boşanmaq üçün müraciət etməsi yox, bunu ağlına gətirməsi qəbahətdir. Nə ola bilər ki, 40 il birlikdə yaşayandan, ailənin çətinliklərini, bərkimə dövrünü arxada qoyandan, övlad, nəvə sahibi olandan sonra boşanmağa qərar verəsən? Bu, bizim ailə dəyərlərimizə böyük zərbədən başqa bir şey deyil. 60 yaşlı 528 kişi və 274 qadın deməli, gənclərimizə “Bir yastıqda qocalın” nəsihətini-alqışını etməkdən məhrum oldu. Yeni tərəflərin boşanma səbəbi nə olursa-olsun, artıq boşanmış, ailəsini dağıtmış bir şəxs kimi düşünürəm ki, bu tövsiyəni verməkdən belə çəkinərlər. Çünki onların məsləhət və tövsiyəsi sözsüz, kənardan birmənalı qarşılanmaz. Odur ki, xüsusilə də hansı yaşda hansı qərarları verməyi düşünə bilmək həyatı anlamaq deməkdir.

### 18-29 yaşda qadınlar, 29-60 yaşda kişilər...

2022-ci ilə olan boşanma ilə bağlı statistika ürəkbulandıran olsa da, nəzər salmağa və nəticə çıxarmağa dəyər: 18 yaşadək kişilər arasında boşanma qeydə alınmasa da, eyni yaş qrupunda olan qadınlar arasında 3 boşanma olub. Həmçinin 18 yaşda kişilər arasında 1, qadınlar arasında isə 31 boşanma qeydə alınıb. 19 yaşda kişilər arasında 2, qadınlar arasında 136 boşanma qeydə alınıb. 20-24 yaşda kişilər arasında 432, qadınlar arasında 2026 boşanma qeydə alınıb. 25-29 yaşda kişilər arasında 2363, qadınlar arasında 3868 boşanma qeydə alınıb.

Göründüyü kimi, yuxarıdakı yaş qruplarında qadınlar boşanmaqda üstünlük təşkil edir. Deməli, ölkəmizdə 18-29 yaş arası qadınlar öz həmyaşıdları olan kişilərlə müqayisədə boşanmağa dəfələrlə artıq meyllidirlər.

30-34 yaşda kişilər arasında 4198, qadınlar arasında 3925, 35-39 yaşda kişilər arasında 3525, qadınlar arasında 2614, 40-44 yaşda kişilər arasında 2254, qadınlar arasında 1398, 45-49 yaşda kişilər arasında 1288, qadınlar arasında 804, 50-54 yaşda kişilər arasında 815, qadınlar arasında isə 560 boşanma, 55-59 yaşda kişilər arasında 533, qadınlar arasında isə 337, naməlum yaşda kişilər arasında 44, qadınlar arasında isə 7 boşanma qeydə alınıb.

Göründüyü kimi, 30-60 yaş qruplarında olan insanlarda isə kişilər boşanmağa daha meyllidirlər. Bu yaşda olan qadınlardan dəfələrlə artıq şəkildə bir yastıqda qocalmaq fikrində deyillər.

Beləliklə bu qənaətə gəlmək olar ki, ölkəmizdə ailələrlə iş aşağı səviyyədə qurulub. Bunu bizdən əvvəl statistika deyir. Həm də kişilər üçün ayrıca, qadınlar üçün ayrıca olaraq. Nəticə isə belədir: bizdə bir yastıqda qocalmağa meylli olanları olmayanlar üstələməkdədir. Bu isə, ailə dəyərlərimizə əlibaltalı qara bir qüvvənin hücumu deməkdir. Bu hücumdan müdafiəyə hazırıq?..

**Mətanət Məmmədova**



Lalə Mehralı

## Övlad sevgisi: bizdə və heyvanlarda

***Kənd həyatından məlumatlı olanlar bilir, müşahidə ediblər. Heyvanlar sağılanda südəmər balasının payını saxlayır, müəyyən qədər qaldıqda o südü süd vəzisinə ötürmür orqanizm, dayanır sağım əməliyyatı. Yəni, şüursuz dediyimiz heyvan belə öz övladının təməl qidasını mühafizə edir. Həmin süd, süd vəzinə yalnız buzovun təmasından sonra gəlir. Bəzən ona da göz dikən sahibləri buzovun ağzını ananın süd vəzinə toxundurur, həmin südü süd vəzinə gətirir və buzovu, quzunu kənara çəkib özləri sağırlar. Amma normalda heyvanın balasının payı saxlanmalıdır – bütün insani, vicdani, əxlaqi dəyərlərə görə.***

Körpə təması olmasa insan orqanizmi də süd istehsalını tədricən azaldır və dayandırır. Bütün dünyada ana südü ilə qidalanma nisbətini artırmaq üçün doğulan kimi körpəni ananın sinəsi üzərində saxlayırlar, süd vəzinə körpənin təması orqanizmin süd istehsalına başlaması üçün vacibdir. Keçmiş nazir Oqtay Şirəliyevin vaxtında bizim doğum evlərində yenidoğulanları ana ilə eyni palatada saxlamaq qaydası tətbiq edilirdi, bu, əmizdirmə faizini yüksəltmişdi. Əks halda, körpə anadan uzaq saxlanır, ana-körpə təması minimuma endirilir, bu da süni qida ilə qidalanmaya bir növ alt zəmin hazırlayır.

Bəzən dünyaya uşaq gətirən qadının çeşidli səbəblərdən südü olmaya bilir, 30-40 il əvvəl bu kimi hallarda südü olmayan analar uşaqlarına süd anası tapırdılar, bu, körpənin süni qida ilə yox, təbii qida ilə böyüməsinə, eyni zamanda, ailə büdcəsinə xidmət edirdi. Südü olmayan ananın (çox nadir rastlanan vəziyyət idi) övladına qonşuluqda, yaxınlıqda yaşayan başqa körpəli qadın süd verirdi. Doğrudur, onda da süni uşaq qidaları vardı, xatırlayanlar olar, məşhur “Nan”, “Malış” markaları vardı. Amma analar süni qidanı mümkün olduğu qədər uşaqlara vermirdilər, uşaqlar ya süd anası, ya da keçi südü ilə qidalanırdı.

Ana südü ilə qidalandırma faizinin ölkəmizdə 50 ətrafında olduğu iddia edilir, lakin müşahidə və təcrübələr göstərir ki, real rəqəm daha azdır, amma 10 il əvvəlki 23-25 faizlik göstəricilərə nisbətdə ”buna da şükür” deyə bilərik. Əgər bu problem sizə çox xırda görünürsə, demək ki, süni uşaq qidalarının təhlükəsi barədə hələ çox məlumatlı deyilsiniz.

Dünyada hər il 1 milyondan çox uşaq ana südü ilə qidalanmadığı üçün vəfat edir. Onların ölümünə səbəb olan ishal, nəfəs yolu xəstəlikləri, bir çox infeksiya ana südü əmən uşaqlarda rastlanmır. Həmçinin, ana südü əmən uşaqlarda “miningit”, qulaq infeksiyaları, revmatizm, əsəb problemi, immun çatışmazlığı da olmur, orta qulaın iltihabını belə ana südü sağalda bilir. Bundan əlavə döş əmən uşaqlar çox az xərçəng xəstəliyinə tutulma riski daşıyırlar, onlar yaşıdlarına nisbətdə daha az diabetə yoluxurlar.

Ana südü hər körpənin haqqıdır, onu bu nemətdən məhrum etməyə heç bir ananın haqqı yoxdur. “Südüm yoxdur”, “fiquram korlanır”, “işləyirəm” kimi iddialara, bəhanələrə sığınmayın. Hamiləlikdə sağlam qidalanın ki, övladınızın təməl qidası bol olsun, onu yalnız biznes maraqları güdən işbazlardan, süni qidalarla gefondumuzu dağıtmağı qarşısına məqsəd qoyan böyük güclərin təsirindən qoruyasınız. Hər yeri zəbt etmiş süni qidalarının reklamlarındakı “biz sizin övladınızı düşünərək ən yaxşı qidanı hazırladıq” kimi cümlələrə aldanmayın. Unutmayın ki, heç kim sizin övladınızı sizin qədər düşünə bilməz.

İnsanın ən vacib və təməl qidası ana südü üzərində həyasızcasına alver quran, yenidoğulmuşları ana südünə həsrət qoyub “smes” bazarını çiçəkləndirən, ”südündə mikrob var” deyib qadının həyatının ən həssas dönəmini kabusa çevirən ”həkimlər”, sizin bəlanızı isə yaradan verəcək. Mütləq verəcək!

Azərbaycanın öz ərazilərində apardığı antiterror tədbirlərindən Avropa İttifaqının narahatlıq keçirdiyi qənaətinə gəlmək üçün kifayət qədər əsas ortaya çıxıb və sən demə, müstəqil bir ölkənin öz suveren hüquqlarından istifadə edərək, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, öz ərazilərini terrorçulardan, separatçılardan, qanunsuz silahlı dəstələrdən təmizləməsi bu boyda beynəlxalq qurumun gözünə pis görünübmüş. Belə görünür ki, qondarma separatçı qurumun, eləcə də Ermənistan hakimiyyətinin təhriki ilə bu vaxta qədər yaşadıqları Azərbaycan ərazilərindən köç edən ermənilərin “vəziyyəti” Avropa İttifaqını daha çox maraqlandırırmış və bu yekəlikdə təşkilat köç edən ermənilərin vəziyyətini hələ də çox böyük narahatlıqla izləməkdə davam edirmiş, halbuki rəsmi İrəvan özü real vəziyyətə görə narahat olmaq yox, həmin vəziyyətdən sui-istifadə etmək niyyətindədir.

# Aİ tərəfindən edilən İKİÜZLÜLÜK




### 30 il erməni vəhşiliklərinə göz yumanlar ermənilərin “köçündən” 30 gün keçməmiş “narahat” oldular

Öz gözündə tiri görməyib, özgəsinin gözündə tük axtaran hayların dırnaqarası “doqquz aylıq blokada” mövzusunda, eləcə də Ermənistana köç edənlərin pis vəziyyəti barədə uydurduqları nağıllara inanmaq həvəsində olan, hətta buna görə narahatlıq keçirdiklərini bəyan edən avropalılar, bəs niyə azərbaycanlıların otuz illik məcburi köçkünlük həyatı yaşadıqlarına görə bircə dəfə narahatçılıq keçirmədilər? Öz doğma yurd-yuvalarını, öz ev-eşiklərini tərk edən azərbaycanlı qaçqınların taleyinə, vəziyyətinə düz otuz il biganə qalan bir beynəlxalq təşkilat Azərbaycan ərazisini, özü də özlərinin deyil, azərbaycanlıların evlərini cəmi bircə aydır tərk edən ermənilərin taleyinə görə nə yaman narahatlıq keçirməli olublar... Şəxsi avtomobilləri ilə köç edən, köç etdikləri zaman da heç bir təhdidlə, təzyiqlə qarşılaşmayan, əksinə, sivil şəkildə, lazımi yardımlar alaraq yoluna davam edən, həm də özlərinə məxsus ən xırda məişət əşyalarına qədər daşıyıb aparan ermənilərin vəziyyəti narahatlıq doğurur, amma soyqırımlara məruz qalaraq, ölüm və əsirlik təhdidi ilə üz-üzə qalmaqla, ayaqyalın, başıaçıq şəkildə doğma yurdunu tərk edənlərin vəziyyəti narahatlıq doğurmurdu? İndi avtomobil nəqliyyatından istifadə edərək, heç bir təhdid və qorxu olmadan, özü də öz istəkləri ilə gedən ermənilərə görə narahat olanlar, ötən əsrin 90-cı illərinin əvvəllərində qarlı havada dağ yolları ilə yarıçılpaq və ayaqyalın şəkildə onlarla kilometr yolu təngnəfəs qaçan və don vurmasına görə ayaqları amputasiya edilən insanların taleyinə, vəziyyətinə görə qətiyyən narahat olmamışdılar. Əks halda, bu narahatçılıqlarının təzahürünü hansısa bir qətnamələrində, qərarlarında, yaxud Ermənistana qarşı hansısa bir sanksiya tələbində görə bilərdik. Amma görmədik və indi ermənilərə münasibətdə bunu görməli oluruq və düşünürük ki, görəsən, bu imiş Avropa dəyərləri, yoxsa Qoca Qitənin humanizmi də ermənipərəst imiş?...

Qarabağda bu vaxta qədər yaşamış və sonuncu antiterror tədbirlərindən sonra öz istəyi ilə, yaxud qondarma separatçı rejimin təhriki, təkidi ilə ərazilərimizi tərk edənlərin insan hüquqları, onların geri qayıtmaları və təhlükə, qorxu olmadan, hətta ayrı-seçkilik qoyulmadan yaşamalarının təminatı barədə bəyanat verənlər otuz il bundan əvvəl kar idilər, yoxsa kor? Bəlkə Azərbaycan vətəndaşlarının yurdsuz-yuvasız qaldığını görmürdülər və heç eşitmirdilər? İllər boyu Xocalı soyqırımı barədə real faktlara, foto və video materiallara əsaslanaraq bütün dünyaya səs salınması azlıq edirdi, yoxsa indi yalançı bir erməni baş nazirin uydurmaları Avropa İttifaqındakıların göz yaşı tökmələri üçün daha tutarlı arqument sayıldı? Niyə 30 il ərzində Avropa İttifaqı azərbaycanlıların öz doğma yurd-yuvalarına qayıtmaları, onların insan hüquqları, təhlükə, qorxu olmadan, ayrı-seçkilik qoyulmadan yaşamalarının təminatı barədə bircə dəfə bəyanat vermədi? İnsanlıq dramı adlandırılan soyqırımlara görə 30 il ərzində səslərini də çıxarmayanlar və erməni vəhşiliklərinə göz yumanlar ermənilərin xoşluqla köç etmələrindən heç 30 gün keçməmiş nə yaman “bihal” oldular? Onların bu yanaşmasının adını nə qoymaq olar və görəsən özləri bir ad tapıb özlərinə qoya bilərlərmi? Bilməzlər.

### Avropanın haqq, ədalət, bərabərlik, hüquq və humanizm dediyi budurmu?

Çox gülünc və rüsvayçı bir mənzərə Avropa İttifaqı üçün məqbul hesab olundu və elə bil bu qurumda kimsənin ağlına gəlmədi ki, işğalçı ölkəni yox, onilliklər boyu işğala məruz qalan ölkəni hədəfə almaq haqsızlıq, ədalətsizlikdir. Heç bir zaman Avropa İttifaqı üçün heç bir formada faydalı olmayan Ermənistana tərəfkeşlik edib, ayrı-seçkiliyə yol verib, özünün enerji təhlükəsizliyinin təmin edilməsində həlledici rol oynayan bir ölkəni, Azərbaycanı, özü də haqsız, əsassız olaraq hədəfə almaq, ədalətsizlik etmək əslində axmaqlıqdır. Çünki qarşıdan gələn soyuq qış fəslində onlar ermənilərin uydurmaları, millətçi erməni ideoloqlarının mifləri, yaxud da yalançı və avantürist erməni baş nazirin, Nikol Paşinyanın yalanları ilə qızınmayacaqlar. Hər halda bunu nəzərə almayanlara axmaq deməkdən, axmaq adı qoymaqdan başqa çarə və yol qalmır, hansı ki, bunu özləri əvvəlcədən başa düşsəydilər daha yaxşı olardı və gülünc olmaz, bu adı qazanmazdılar. Eyni zamanda nəzərə alardılar ki, çətin duruma düşdükləri zaman onlar üçün Ermənistandan istəyəcək heç nə yoxdur, çünki özü çox açınacaqlı bir durumda olan, heç bir təbii ehtiyatı və istehsalı olmayan bir ölkənin Avropaya təklif belə etməyə nəyi isə yoxdur axı. Ermənistan özü əl açıb yardım gözləyir. Rəsmi İrəvan Azərbaycanın işğal olunmuş ərazilərində on illər boyunca qeyri-qanuni məskunlaşan öz həmvətənlərinə dəstək üçün utanmadan vəsait istəyir, daha doğrusu pul dilənir. Qarabağdan köç edib gedənlərin ehtiyaclarını heç 30 gün belə qarşılaya bilməyən Ermənistan əl açır, bu ölkəyə də yardımlar ayrılır, vəsaitlər köçürülür, amma 30 il müddətində Azərbaycan özünün məcburi köçkün problemini özü həll etdiyi zaman nə əl açıb iyanə istəmədi, nə də həmin o yardım edən təşkilatlar bu barədə bircə dəfə düşünmədilər belə. Budurmu Avropanın haqq, ədalət, bərabərlik, hüquq və humanizm dediyi?...

### Çox bayağı yaltaqlıq və gülünc şəkildə özünü humanist göstərmə cəhdi

“Avropa Komissiyası keçən həftə 2020-ci ildən bəri verilmiş 20,8 milyon avroya əlavə olaraq 10,45 milyon avroluq əlavə humanitar yardım paketi də elan etdi”, - deyə Avropa İttifaqının bəyanatında bildirilir. Yəni, belə çıxır 20,8 milyon az imiş ki, buna əlavə də edildi. Belə çıxır ki, ermənilərin xoşlarına gəlsin deyə yardımlara əlavə daha 10 milyon da “peşkeş” olundu. Bu, çox bayağı bir yaltaqlıq və gülünc şəkildə özünü humanist göstərmə cəhdidir. Çünki bu vaxta qədər Ermənistan hökümətinin bircə dənə də olsun erməniyə, ələlxüsus da Qarabağdan köç edib Ermənistana üz tutan erməni əsilliyə bir ev tikib verdiyinin, hansısa qayğılarını, ehtiyaclarını qarşıladığının şahidi olmadığı halda, Avropa Komissiyasının “yuyulmamış çömçə kimi” ortaya atılıb yardım ayırması və bununla da “qürrələnməsinin” adı yaxşı halda, yaltaqlıqdır. Pis hala gəlincə isə, bunu, üç onillikdən artıq qonşu ölkənin ərazisinin 20%-ni işğal altında saxlayan dövlətə yardım ayrılması fonunda düşünmək və belə bir qənaətə gəlmək olar ki, işğala məruz qalan ölkəyə deyil, işğal edən ölkəyə yardım etmək yumşaq desək, ikiüzlülükdür. Sevindirici və qürurverici haldır ki, belə yardımlara Azərbaycanın heç ehtiyacı da yoxdur və qoy elə yardıma möhtac olanlar yardım dilənsinlər. Dilənçilərin isə əlinə qoyulan iyanələri, sədəqələri kimlərin qoyduğunu da biz müşahidə edək ki, buna görə də gələcək planlarımızda lazımi, müvafiq doğru qənaətə gələk.

### Təəccüblü, gülməli və hətta anormal təzahür

Bir tərəfdən qonşu ölkənin, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edən, o biri tərəfdən də Azərbaycana məxsus olan 8 kəndi qətiyyən qaytarımaq niyyətində olmadığını açıq-aşkar bildirən yalançıya, erməni baş nazir Nikol Paşinyana nəyə görə inanılır? Çox təəccüblüdür və hətta gülməlidir. Üstəlik, Azərbaycana məxsus kəndləri hələ də əsl sahibinə qaytarmayan Paşinyanın çıxışı alqışlanır və bu, anormal təzahür kimi görünür. Həm də ona görə anormaq təzahür kimi görünür ki, Avropa İttifaqındakıların alqışladıqları, 44 günlük müharibə zamanı dinc Azərbaycan şəhərlərinə raket zərbələri endirmək əmrini şəxsən verən, onlarla qocanın, qadının və uşağın ölümünə baiskar olan və məsuliyyət daşayan biridir və alqış edilən hərbi cinayətlər törədəndir.

### Heç bir məntiqə və normaya sığışmayan çağırış

“Mülki insanlara zülm etməmək” çağırışlarının Azərbaycana ünvanlanması artıq daha böyük təəssüf, daha böyük ikrah doğurur və bu, həmin çağırışı edən beynəlxalq qurumun, Avropa İttifaqının yaltaqlıqdan, ikiüzlülükdən də pis sifətini açıb ortaya qoyur və buna ad tapmaqda bu dəfə həqiqətən çətinlik çəkirik. Çünki mülki insanlara zülm etmək məhz ermənilərin ənənəsidir və hayların əsrlər boyu insanlara zülm verən çirkin əməlləri bunu dəfələrlə sübuta yetirib. Ötən əsrin sonlarında hayların törətdikləri soyqırımların, vandallıqların, vəhşiliklərin tayı-bərabəri tarix böyü görünmədiyi halda “zülm etməmək” çağırışları niyə Azərbaycana ünvanlanmalıdır? Avropa İttifaqındakılar ötən əsrin əvvəllərində hayların Bakıda, Qubada, Şamaxıda, Gəncədə, Lənkəranda, Naxçıvanda və başqa ərazilərimizdə törətdikləri soyqırımlardan, 31 mart soyqırımından xəbərsizdirlər, yoxsa həmin əsrin sonunda öz ənənələrinə uyğun olaraq, Xocalıda, Ağdabanda, Ballıqayada, Başlıbeldə və digər ərazilərimizdə törətdikləri soyqırımlar barədə bir şey bilmirlərmi? Bilirlər, özü də çox yaxşı bilirlər. Onu da yaxşı bilirlər ki, ermənilər azərbaycanlılara qarşı soyqırımlar törətdikdən sonra cəsədlər üzərində təhqiramiz hərəkətlər də ediblər və onların bu vəhşilikləri foto və video materiallarda öz təsdiqini tapır. Bunları bilə-bilə özlərini bilməməzliyə vurmaq və mülki insanlara zülm etməmək çağırışlarını Azərbaycana ünvanlamaq olduqca böyük bir ikrah doğurur. Ermənistan Respublikasından vəhşicəsinə, təhdidlərlə qovulmuş və real olaraq etnik təmizləməyə məruz qalmış azərbaycanlıların müvafiq olaraq hüquqlarını təmin etməyə hesablanan hansısa bir çağırış barədə Avropa İttifaqındakılar heçmi düşünmək, yaxud nəyi isə dərk etmək fikrində deyillər? Bu qurumda təmsil olunanlar heçmi dərk etmək istəmirlər ki, köçüb Ermənistana gedənlərin geri qayıtması və onlar üçün hər bir şəraitin, təhlükəsizliyin təminatı tələbi ilə çıxış edən ölkənin də, bu ölkənin baş nazirinin də hal-hazırda analoji olaraq, azərbaycanlıların biz zamanlar yaşadıqları həmin ərazilərə geri qayıtmasına qətiyyən razılığı belə yoxdur, amma Azərbaycan dövləti qanunlarını, vətəndaşlığını qəbul edən ermənilərin bu vaxta qədər yaşadıqları ərazilərə, evlərə geri dönmələri və onların reinteqrasiyası üçün təkliflərlə çıxış edir, hətta bunun üçün görüşlər belə reallaşdırılıb. Bütün bunların fonunda hansısa müvafiq çağırışı Azərbaycana etmək heç bir məntiqə və normaya sığışmır.

### Qarabağ ermənilərindən maliyyə qoparmaq vasitəsi kimi istifadə edənlərin oyununun alətinə çevrilənlər

Ən çox diqqətçəkən və Avropa İttifaqında təmsil olunanlara xatırladılmalı məqam odur ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunun erməni əhalisinə rəsmi İrəvanın münasibəti çox pis olduğu halda, Ermənistan əhalisi bu vaxta qədər Qarabağda yaşayan və Ermənistana köçən erməni əhalisinə qarşı dözümsüzlük nümayiş etdirməsi fonunda rəsmi Bakı onlara, bütün hüquqlarının təminatı üçün zəmanət verir və onları heç bir yeri tərk etməməyə, sədəcə olaraq, vətəndaşlığı qəbul etməyə çağırır. Ölkədən xaricə çıxdığı zaman beynəlxalq təşkilatlar qarşısında vətəndaşlarının vəziyyəti ilə bağlı göz yaşı tökən Paşinyan və onun hakimiyyət komandası köç edib Ermənistana gedənlərin taleyi ilə qətiyyən maraqlanmır, əks halda onların xarici ölkələrə üz tutmalarına qarşı tədbirlər görərdi. Xarici ölkələrdən pul dilənən rəsmi İrəvan Qarabağ ermənilərinə adi yaşayış şəraiti belə yaratmayıb deyə, onlar Ermənistanı tərk edirlər və bunu görməməzliyə vuran Avropalılar bilməlidirlər ki, göndərdikləri vəsaitlər köç edib gedən ermənilərə xərclənilmir, Paşinyan və onun hakimiyyət komandasının dilənərək aldıqları pullar özlərinə qalır. Deməli, rəsmi İrəvan faktiki olaraq Qarabağ erməniləri mövzusundan sadəcə olaraq, həm maliyyə qoparmaq vasitəsi kimi istifadə edir, həm də bu məsələni Azərbaycana qarşı təzyiq vasitəsi olaraq gündəmdə saxlayır. Bu isə o deməkdir ki, Ermənistan həm Qarabağ erməniləri məsələsindən, həm də faktiki olaraq, Avropa İttifaqından alət kimi istifadə edir. Alət olmağı isə özünə rəva bilən Avropa İttifaqı ədalətsizlik edərək, əsassız, haqsız bəyanatlar səsləndirir, bununla da böyük həvəslə hayların oyununun oyuncağına çevrilir...

***İnam Hacıyev***






# Bəni öldürsələr də bən yaşarım

*"Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqınm milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqımn mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur". Bu fikirləri Ümummilli Lider Heydər Əliyev Azərbaycan ədəbiyyatı tarixində xüsusi mövqeyi olan qüdrətli söz ustalarından biri olan Hüseyn Cavid haqqında bildirmişdir.*

Fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən Hüseyn Cavid yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazıb. O, bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm edib. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof-şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirib. Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən olan filosof-şair və istedadlı dramaturq Hüseyn Cavid ictimai fikir tarixində böyük rol oynamışdır. Hələ sağlığında öz orijinal sənət yolu ilə milli ədəbi-ictimai fikrin diqqətini yaradıcılığına cəlb etmiş Hüseyn Cavid irsi günahsız yerə repressiya olunduqdan sonra, bir müddət yasaq edilsə də, əsl vətənpərvər ziyalıların xatirindən bir an da çıxmamış, yeri gəldikcə, şifahi şəkildə olsa da, təbliğ edilmişdir. Bütün böyük klassiklər kimi, Hüseyn Cavid də zamanın sınağından alnıaçıq çıxaraq, layiq olduğu bəraəti almışdır.

## "TARİX HƏR ŞEYİ ÖZ YERİNƏ QOYDU"

Xalqımızın bir çox klassik sənətkarı kimi, Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin əsl qiymətini sözün-sənətin böyük bilicisi və hamisi Azərbaycan xalqının böyük Oğlu, Ümummilli Lider Heydər Əliyev vermiş, onun istər cismən, istərsə də mənən vətəninə və xalqına qaytarılmasında müstəsna rol oynamışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin nəşinin hələ 1982-ci ildə Uzaq Sibirdən vətəninə gətirilməsi və Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından, müstəsna əhəmiyyətə malik misilsiz bir hadisədir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi".

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin cənazəsinin qalıqlarının Azərbaycana - şairin doğma yurdu Naxçıvana gətirilməsi Sovet məkanında yaşadığımız illərdə, həqiqətən də, böyük maraq doğurmuşdu. Milli mədəniyyətimizin hərtərəfli inkişafına, yüksəlişinə daim təkan verən Ulu Öndər Heydər Əliyev hələ Azərbaycan KP MK-nın Birinci Katibi vəzifəsində çalışarkən, 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etmiş, bu qərardan sonra - 1982-ci il oktyabrın 3-də Naxçıvana səfəri zamanı Cavidin cənazəsinin qalıqlarının Uzaq Sibirdən tapılıb gətirilməsinə xeyir-dua vermişdir. 1982-ci il oktyabrın 12-də Naxçıvan Vilayət Partiya Komitəsi Hüseyn Cavidin məzarının tapılması, cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı tarixi bir qərar qəbul etmiş və bu qərarın icrası rusiyalı həmkarlarının köməyindən istifadə edərək şairin məşəqqətli ömür yolunu tədqiq edərək, Cavid haqqında Uzaq Sibirdə saxlanılan sənədlərin əldə olunmasına nail olan Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərova həvalə olunmuşdu. Cavidin cənazəsinin qalıqları onilliklərdən sonra uzaq və buzlu Sibirin əlçatmaz yerlərindən doğma yurdu Naxçıvana gətirildi.

## AZƏRBAYCANDA POETİK TEATRIN BANİSİ CAVİDDİR

Böyük dramaturqun doğum günündə onun keçdiyi ömür yolunu bir daha vərəqləyirik. Böyük dramaturq Hüseyn Cavid 1882-ci ildə oktyabrın 24-də Naxçıvanda ruhani ailəsində dünyaya göz açıb. İbtidai təhsilini Naxçıvanda molla məktəbində, orta təhsilini isə M.T.Sidqinin "Məktəbi-tərbiyə" adlı yeni üsullu məktəbində almışdır. 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmiş, Naxçıvanda, sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur.

Hüseyn Cavid sənəti janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. "Keçmiş günlər" adlı ilk şeir kitabı 1913-cü ildə çap olunmuşdur.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub və yazı ədası forma yeniliyi baxımından, Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, "Cavid teatrı" kimi səciyyələndirilmişdir. Professor Cəfər Cəfərov yazırdı: "Şair və teatr özü-özlüyündə bir problemdir ki, səhnə sənətinə yeni keyfiyyət gətirir. Azərbaycanda poetik teatrın banisi Caviddir. ...Cavid yaradıcılığı teatrla üzvi surətdə bağlıdır və Cavidin şübhəsiz, öz teatrı vardır. Cavidi teatrsız, teatrı Cavidsiz düşünmək olmaz". Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır.

Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan "Şeyx Sənan" (1914) əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır. Hüseyn Cavid bu dövrdə tədriclə "haqq verilmir, alınır" ideyasına gəlib çıxmışdır. Yaradıcılığında mühüm yer tutan "İblis" (1918) mənzum faciəsində dövrün bütün mürtəce qüvvələri - "insan insana qurddur" fəlsəfəsinin tərəfdarları, "iyirminci əsrin mədəni vəhşiləri" olan dairələri İblis surətində ümumiləşdirilmiş və işğalçı müharibələrə lənət yağdırılmışdır.

## ORİJİNAL TƏBİƏTƏ MALİK ŞAİR

1926-cı ildə müalicə üçün Almaniyaya gedən və 7 ay Berlində yaşayan Hüseyn Cavid oradan ziyalıların mənəvi iztirablarını əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şeirlərlə qayıdır. Ötən əsrin 20-30-cu illərində Hüseyn Cavid bir sıra tarixi dramlar yazmışdır. "Peyğəmbər" (1922) və "Topal Teymur" (1925) əsərlərindən sonra yazdığı "Səyavuş" (1933), "Xəyyam" (1935) tarixi dramları Hüseyn Cavidin tarixə və tarixi şəxsiyyətlərə baxışında ciddi dönüş oldu.

Yazıçılardan bir belə yazırdı: "Həyat həqiqəti ilə arzu və xəyal arasındakı ziddiyyət onun dram əsərlərinin hərəkətverici qüvvəsidir. Buna görə də H.Cavid müstəsna hadisə, müstəsna hərəkətlər, müstəsna xarakter, müstəsna fabulalar yaradır. H.Cavid orijinal təbiətə malik bir şair idi. Onun bir misrasını silmək, başqa bir misra ilə əvəz etmək mümkün deyildi, hətta dilinin imlasını dəyişdirmək belə böyük cəsarət tələb edirdi".

Böyük sənətkarın yaradıcılıq irsinə və şəxsiyyətinə hər zaman diqqət olmuşdur. Ümummilli Lider Heydər Əliyevin "Hüseyn Cavidin 120 illik yubileyi haqqında" imzaladığı Sərəncamdan bir gün sonra 2002-ci il 24 oktyabrda, yəni Hüseyn Cavidin 120 illik yubileyi günündə şairin Ev Muzeyi açıldı. Bu gün Azərbaycan Prezidenti Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Azərbaycan Prezidentinin Sərəncamına əsasən, böyük sənətkarın əsərləri latın qrafikasında çap olunub. Hüseyn Cavidin 130 və 135 illik yubileylərinin keçirilməsi haqqında dövlət başçısı sərəncamlar imzalamışdır.

Görülən işlərin davamı olaraq, Cənab Prezident 24 sentyabr 2022-ci il tarixində Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncam imzaladı. Bu sənəd Cavid yaradıcılığına ayrılan daha bir diqqətdir.

## BƏNİ ÖLDÜRSƏLƏR DƏ BƏN YAŞARIM

Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək, Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmışdır. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır. Böyük dramaturq Hüseyn Cavid "Şeyx Sənan" faciəsində yaratdığı dramatik münaqişə vasitəsilə insanın həqiqət axtarışında olaraq, onun hisslərinin aliliyini yüksəltmək səyləri ilə ucala biləcəyinin mümkünlüyünü isbat etmişdir. Hüseyn Cavid də, məhz belə ali dəyərlərin axtarışında olaraq, əbədiliyini qazanmışdır. Əsərdə qəhrəmanı Sənanın dilindən deyilmiş aşağıdakı misralarda sanki dramaturqun həyatı nəzmə çəkilmişdir:

Bəni öldürsələr də bən yaşarım,
Tərk edib xəlqi xaliqə qoşarım.

***Zümrüd BAYRAMOVA***



# Su qiyamətinə hazırsınızmı?

## Quraqlıq riski bütün dünyanı hədələyir, bəs biz su qıtlığına qarşı nə edə bilərik?

***Əhalinin artması, həddindən artıq istehlak və israf, son illərdə qeyri-müntəzəm və qeyri-kafi yağıntılar səbəbindən dünya çox ciddi təhlükənin astanasındadır: quraqlıq. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünya əhalisinin 40%-i su qıtlığı ilə mübarizə aparır və 700 milyona qədər insan 2030-cu ilə qədər quraqlıq səbəbindən miqrasiya riski altındadır. Bu, həm də qida çatışmazlığı və epidemiyalar kimi bir çox risklər yaradacaq.***

### Təhlükə qaçılmaz olacaq

Dünyada hər il təxminən 55 milyon insan quraqlıqdan əziyyət çəkir. Qeyri-adekvat su ehtiyatları heyvandarlıq və kənd təsərrüfatı sektorlarına zərər vurmaqla yanaşı, insanların əsas dolanışıq vasitələrini də risk altına qoyur. O, epidemik xəstəliklər, məcburi köçlər və ərzaq qıtlığı kimi təhlükələr yaradaraq bəşəriyyətin həyatını təhlükəyə atır. Üstəlik, Yerdəki suyun yalnız 2,5 faizi şirin sudur.

Dünyadakı şirin su qaynaqlarının yalnız 10 faizi əlçatandır. Qalan şirin su ehtiyatları yeraltı sularda və buzlaqlarda mühafizə olunur. Dünyada 663 milyon insanın adekvat su ehtiyatlarına çıxışı yoxdur, hər gün 5 yaşınadək 800 uşaq qeyri-adekvat su, kanalizasiya və pis gigiyena şəraitinin yaratdığı ishaldan ölür. Dünyada qadınlar və qızlar evlərinə su daşımaq üçün ümumilikdə 200 milyon saat sərf edirlər.





Əhalinin artımı, sənaye və enerji sektorlarında artan tələb və istehlak nisbəti ilə birlikdə məişət sularından istifadənin artması qarşıdakı quraqlıq riskini daha aydın göstərdi. Son bir neçə onillikdə suya tələbatın artması dünya əhalisinin artımından iki dəfə çox artıb. 2040-cı ilə qədər bu tələbatın 4,350 milyard kubmetrə çatacağı bildirilir. Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, növbəti 30 il ərzində qlobal sudan istifadənin ildə təxminən 1% artacağı gözlənilir.

### Biz nə edə bilərik?

Mövcud vəziyyətə nəzər saldıqda aydın olur ki, təcili tədbirlər görməliyik. Bu gün hamımız sudan istifadə, istehlak və idarə etmə üsulumuzu dəyişdirməklə gələcəyimizi təminat altına ala bilərik. Lakin bunlardan əlavə təsir zonamızı genişləndirmək üçün qlobal əməkdaşlıqlar etməyimiz vacibdir. Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi ilə hər il martın 22-də keçirilən Ümumdünya Su Günü qeyd olunması bunun üçün yaxşı fürsətdir. Lakin bu mübarizəmiz 1 gündə deyil, ilin 365 günündə davam etməlidir.

Dayanıqlı İnkişaf Məqsədlərinin 6-cısı olan "Təmiz Su və Kanalizasiya" maddəsi 2030-cu ilə qədər hər kəsin təhlükəsiz və əlçatan içməli suya çıxışını təmin etmək məqsədi daşıyır. Birləşmiş Millətlər Təşkilatına görə, bu məqsədə çatmaq üçün hökumətlər orta hesabla dörd dəfə daha sürətli işləməlidir. Ancaq bu, təkbaşına həll edə biləcəkləri bir vəziyyət deyil. Fərdi və institusional olaraq mübarizəni gücləndirməliyik. Məhz buna görə də kampaniyaların builki mövzusu "tərəfdaşlıq və əməkdaşlıq vasitəsilə dəyişikliyi sürətləndirmək" kimi müəyyən edilib.

Yeraltı su ehtiyatlarımız yanlış kənd təsərrüfatı təcrübələri və iqlim dəyişikliyinin təsirləri səbəbindən sürətlə tükənir. İqlim dəyişikliyi su ehtiyatlarına çıxışa, su ehtiyatlarının səmərəliliyinə və miqdarına birbaşa mənfi təsir göstərir. İqlim dəyişikliyi səbəbindən 2000-ci ildən bəri sellə bağlı fəlakətlər 134 faiz artdığı halda, quraqlıqların sayı və müddəti əvvəlki 10 illə müqayisədə 29 faiz artıb. Son 50 ildə qlobal istiləşmənin 90 faizindən çoxu okeanlarda baş verib. Dəniz suyunun temperaturunun artması və buzlaqların əriməsi ilə əlaqədar növbəti 2000 ildə dəniz suyunun hündürlüyünün 1,5 dərəcə artımla 2-3 metr, 5 dərəcə artımla isə 19-22 metrə çatacağı proqnozlaşdırılır. Bu, o deməkdir ki, dünyada bir çox sahilyanı yaşayış məntəqələri su altında qalacaq.

### Milli sərvət – içməli su

Dünyada su ehtiyatları sonsuz deyil, sürətlə tükənir. Xüsusilə, 20-ci əsrin ikinci yarısından sonra əhalinin sürətlə artması, qidaya ehtiyacın artması, cəmiyyətin sənayeləşməsi, çirklənmənin artması və iqlim dəyişikliyinin təsiri su ehtiyatlarına təzyiq göstərir. Əhali sürətlə artdıqca, təmiz su ehtiyatları sabit qaldıqda və hətta getdikcə daha çox çirkləndikcə su problemi daha da aktuallaşır. Üstəlik, gündəlik istifadə etdiyimiz suyun dəyəri bu gün də yaxşı qiymətləndirilmir. Mövcud sudan kifayət qədər israfçılıqla istifadə olunur. Yalnış istehlak vərdişləri dünyanı gündən-günə su böhranına yaxınlaşdırır.

Dünyanın 70 faizi su ilə örtülüdür, lakin içməli su ehtiyatları bütün suyun yalnız 1 faizini təşkil edir. Bununla belə, mövcud içməli su mənbəyinin əlçatanlığı ciddi problemdir. Su ehtiyatlarının kəmiyyət və keyfiyyətcə qeyri-kafi və əlçatmaz olması təbiətə, cəmiyyətə və fəaliyyət göstərən iqtisadiyyatlara birbaşa təsir göstərir. Qlobal suya tələbat artır. Sosial, iqtisadi və ekoloji sahələrdə su problemi bəşəriyyət üçün əsas təhlükələrdən biri hesab olunur. Həyati əhəmiyyətinə görə "Su iqtisadi sərvət olmamalıdır" fikri səsləndirilsə də, əslində içməli su indi ən çox ticari söz-söhbət yaradan təbii sərvətdir. Dünya ölkələri içməli suya çıxış, əlçatanlıq məsələsində bir-birindən gizlin tədbirlər görməkdədir. Artıq qızıl yataqları, neft quyuları qədər içməli su ehtiyatları da milli sərvət hesab edilir.

### Hətta biz də

Azərbaycan ərazisində içməyə yararlı sular məhdud ehtiyatlara malik olmaqla qeyri-bərabər paylanmışdır. Hazırda ölkənin yerüstü su ehtiyatları 27 kubkilometr təşkil edir, quraq illərdə isə bu ehtiyat 20-21 kubkilometrə qədər azalır. Yerüstü su ehtiyatlarının mənbələri çaylar, göllər, su anbarları və buzlaqlar təşkil edir. Ölkəmizin şirin su ehtiyatlarının 70-72 faizi ölkə hüdudlarından kənarda formalaşır.

Son 1 ildə Azərbaycanın su ehtiyatları minimuma düşüb. Həmişə bol sululuğu ilə məşhur olan Kür və digər kiçik çaylar quruyur. Dünyada gedən qlobal istiləşmə bizdən də yan keçmir, içməli su mənbələrimiz quruyur. Təəssüf ki, bizdən fərqli olaraq, bir çox dünya ölkələri bu həyati təhlükə ilə bağlı ciddi tədbirlər gördü. Azərbaycan su ehtiyatlarının az olduğu ölkələrdən biridir, ölkənin ümumi su ehtiyatının 70 faizi xarici mənbələr hesabına formalaşdığından qlobal problem başlayanda həmin 70 faiz su da bizə çatmayacaq. Transsərhəd çaylarından gələn suyu həmin ölkələr istifadə edəcək.

Kürdə suyun səviyyəsinin aşağı düşməsi məsələsinə gəlincə, bunun bir çox səbəbləri var. Onlardan biri Kür çayının mənbəyi olan Türkiyədə bir neçə su anbarının tikilməsidir. Mənbə sularının böyük hissəsi orada toplanılır və çaya az gəlir. İkincisi isə, Kürə axan kiçik çaylar ekoloji səbəbdən quruyub. Məsələn, meşələr qırılıb, qum, çınqıl daşları daşınılıb. Həmin çaylar lilli suyu Kürə gətirir və çayın aşağı axarlarında onun dibi yuxarı qalxır. Məhz ona görə də keçən il əksinə olaraq, dəniz suyu Kürə axmağa başladı. Üstəlik, Kür çayına təzyiq artıb. Ondan suvarmada nəzarətsiz və məhdudiyyətsiz istifadə edilir. Bir çox böyük plantasiyalar suvarma üçün Kür çayının suyunu normadan artıq götürürlər.

Qeyd edək ki, Azərbaycanın 30 faiz su ehtiyatı Qarabağda yerləşir. Həmin su ehtiyatlarından səmərəli istifadə edilsə, ətraf regionlar da vəziyyətdən çıxa bilər. Amma bu, kortəbii yox, sistemli, elmi şəkildə əsaslandırılmış işlər vasitəsi ilə həyata keçirilməlidir. Suyun düzgün paylaşdırılması, bölüşdürülməsi, su mənbələrinə normal təzyiq verilməsi kimi məsələlər nəzərə alınmalıdır. Yəni bir tərəfdə daha çox su istismar edib, digər tərəfdə qıtlıq yaratmamaq üçün düzgün kanalların çəkilməsi, alternativ mənbələrdən istifadə etmək lazımdır.

***Lalə Mehralı***

ARAŞDIRMA



## ADMİU-da YENİ Klub təsis olunub



Oktyabrın 20-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində YENİ Klubun təsis toplantısı keçirilib. Təsis toplantısını giriş nitqi ilə açan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru Sədaqət Əliyeva ali təhsil müəssisəsində tələbələrin şəxsi inkişafını dəstəkləyən və aktivliyini təmin edən klubun formalaşdırılmasının mühüm əhəmiyyətə malik olduğunu bildirib. O, YENİ Klubun önəmli təşəbbüslər irəli sürərək faydalı layihələr reallaşdıracağına inamını ifadə edib və uğurlar arzulayıb.

Daha sonra ADMİU-nun nəzdində formalaşdırılan YENİ Klubun rəhbəri Nəbi Vəliyev, koordinator Əfsun Məmmədli təqdimatla çıxış ediblər.

Klub haqqında ətraflı məlumat verən gənclər qeyd ediblər ki, ali təhsil müəssisəsi daxilindəki klub təşkilatlar ilə birgə fəaliyyət həyata keçirəcək, yarışlar, müsabiqələr, layihələr, təlimlər, xarici dillərdə tədbirlər təşkil edəcək.

Çıxışında ali təhsil müəssisələrinin nəzdində YENİ Klubların formalaşdırılmasının əhəmiyyətindən bəhs edən YAP Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev qeyd edib ki, klublar tələbələrin cəmiyyətdə təşəbbüskar rolunun artırılmasında da mühüm rol oynayacaq.

# Gəlin atlandı, ya qismət...

## FELYETON

***İşə gəlirəm, metrodayam, eskalatorla aşağı enirəm. Baxıram ey, qarşımda iki nəfər dayanıb, amma bunlardan birinin başı yoxdur. Maraq məni götürür. Hanı bunun başı? İşə düşmədik? Çantamı açıram, eynəyimi çıxarıram, sonra eynək siləni çıxarıram, eynəyi silirəm, qoyuram gözümə, baxıram ki, hə, qarşıda iki adam var, birinin başı o birinin sinəsindədir...***



* * *

Axşamçağı işdən çıxıb gedirəm evə tərəf. Baxıram ki, qarşıda, parkın yanında, ağacın altında iki nəfər dayanıb. Yenə bunlardan birinin başı yoxdur. Bismillahir-rəhmanir-rəhim, niyə bu başsız adamlar mənim gözümə görünür? Əcəba, içimə cin-şeytan giribmi? Yoxsa dünən axşam baxdığım "Başsız atlı" filminin təsiri altındayam hələ... "Allah, özün kömək ol",- deyirəm və başlayıram "Ayətül-kürsü" oxumağa. Yaxınlaşanda görürəm ki, yox, cin-şeytan, film məsələsi deyil, həqiqətən də burada iki nəfər dayanıb, sadəcə, birinin başı o birinin qoynundadır, mən görməmişəm...

* * *

Hərdən yazı yazmaqdan ta başım xarab olur. Xarab olmasın, nə etsin axı. 30 ildir, yazıram. Mətləbə gəlim, hə, deyirəm buradan keçim dənizkənarı parka, bir az hava vursun məni, beynim açılsın. Gedirəm, baxıram ki, sahilboyu adamlar oturub dənizə tamaşa edirlər. Kor deyiləm, uzaqdan olsa da, aradabir görürəm ki, ordaburda iki nəfər əyləşib, amma bəs bunların başı birdir axı. Yaxınlaşıram, görürəm ki, doğru görürmüşəm, burada əyləşən iki nəfərdir, lakin o birinin başı bu birinin qucağındadır.

Burada başsız adamları xeyli görürəm. O başda, bu başda, sahildə, skamyalarda, ağacların altında. Gördükcə də başlarının olduğunu, amma bu başların hərəsinin bir yerdə dayandığını da görürəm.

* * *

O günləri də marşrut avtobusdayam. Arxada oturmuşam. Gördüm qarşı tərəfdə bir yer boşalıb, qalxdım, gəldim ki, orada rahat əyləşim. Gələndə nə görsəm yaxşıdır, yer boş deyil, doludur. Mən arxadan görə bilməmişəm, çünki başlardan biri yenə yox idi. Yanındakının çiynində imiş. Mən qayıdıb yerimdə oturanadək biri də gəlib əyləşib yerimdə. Dedim, lənət sənə kor şeytan...

* * *

Keçən həftə də küçə ilə gedirəm. Qarşıda məndən bir az aralıda yenə də təxmin edirəm ki, bir nəfər deyil, iki nəfər gedir. Kor deyiləm, yaxınlaşdıqca, baxıram ki, axı bunun birinin başı yoxdur. Bir az da yaxınlaşıb yanlarından keçəndə görürəm ki, varmış, amma o birinin sinəsindəymiş. Deyirəm, bu vəziyyətdə necə də yeriyə bilirlər bu bəxtəvərlər...

Nə isə, bu sadaladıqlarımın hər birini görəndə öz-özümə sual vermişəm, yəqin sevgilidirlər? Sonra da öz-özümə cavab vermişəm, tutaq ki, sevgilidirlər. Kimin sevgilisi olmayıb ki... Amma "gəlin atlandı, ya qismət" məsələsi axı...

***Mətanət Məmmədova***



# Bakının həllolunmaz problemi: çıxış yolu nədir?

**Elçin Bayramlı**

***Azərbaycan o ölkələrdəndir ki, mədəni və iqtisadi potensialının böyük hissəsi paytaxtda cəmləşib. Bu da öz nəticəsini Bakıda son illərdə daha da kəskinləşən nəqliyyat sıxlığı, başqa sözlə, avtomobil tıxaclarında göstərir.***

Son 30 ildə Bakıda əhalinin sayının 2 dəfədən çox artması şəhər nəqliyyatında gərginliyi son həddə çatdırıb. Avtomobil tıxacları artıq şəhərin mərkəzdənkənar ərazilərində də çoxalır. Respublikada avtomaşınların sayı 1,5 milyona yaxındır ki, bunun ən azı yarısı gün ərzində Bakı və Abşeronda olur.

Bakının mərkəzi küçələri ötən əsrlərdə salındığından onların eni çox balacadır. Üstəlik, bu dar küçələrdə çox sayda obyektlər fəaliyyət göstərməyə başlayıb. Bu halda həmin küçələrin hər iki tərəfi ilə avtomobil dayandığı halda küçədə hərəkətin tıxaclaşmasını meydana gətirir. Sıx-sıx tikilən yeni çoxmərtəbəli binalar isə vəziyyəti daha da ağırlaşdırır.

Tıxaclar insanlara təkcə vaxt itkisi və əsəblərin pozulması bahasına başa gəlmir. Tıxacların daha ağır nəticələri də olur. Məsələn, tıxacların olması təcili tibbi yardıma ehtiyacı olan adamın xəstəxanaya çatdırılması, yanğınsöndürən maşınların hadisə yerinə tez çatması və sair buna oxşar hadisələr zamanı faciələrin yaranmasına səbəb olur.

Müvafiq dövlət orqanları problemi həll etmək üçün neçə ilərdir ki, bu məqsədlə xeyli vəsaitlər sərf edirlər, böyük miqyasda işlər görülür lakin problem həll olunmamış qalır. Çünki əslində, səbəbi yox, nəticəni aradan qaldırmağa çalışırlar. Paytaxtda tikilən tunellər, körpülər, avtodayanacaqlar, yeni salınan küçə və yollar, piyada keçidləri vəziyyəti bir qədər yüngülləşdirsə də, əhəmiyyətli dəyişiklik baş verməyib.

Tıxacların səbəbi heç də maşın çoxluğu ilə bağlı deyil, çünki bizdə maşın sayı əksər ölkələrdən azdır. Ölkədə olan avtomobillərin sayınının 1.4 milyon cıvarında olduğunu nəzərə alsaq, ölkə üzrə hər 8 nəfərə 1 avtomobil düşür. Dünyanın digər iri şəhərləri ilə müqayisə etsək Bakıda əhalinin hər min nəfərinə düşən avtomobil sayı xeyli azdır. Üstəlik, Bakı ərazisinə görə də dünyada ən böyük şəhərlərdəndir. Deməli, avtomobillərin sayı heç də ciddi tıxac probleminin yaranması üçün əsas deyil.

Araşdırmalara görə, Bakıda tıxaclar aşağıdakı səbəblərdən yaranır.

- Paytaxtda heç bir qaydaya əsaslanmadan çox sayda yeni çoxmərtəbəli binaların tikilməsi;
- Bir çox binaların parklama meydançalarının olmaması və yaxud aztutumlu olması səbəbindən nəqliyyat vasitələrinin yolun kənarında parklaması;
- Fasiləsiz təmir-tikinti işlərinin aparılması;
- Nəqliyyat axınının və küçə ötürmələrinin düzgün təşkil edilməməsi;
- Sürücülər tərəfindən yol qaydalarına riayət edilməməsi və sürücü mədəniyyətinin aşağı səviyyədə olması.

Problemin həlli qlobal və lokal tədbirlərlə mümkün ola bilər. Qlobal tədbirlərdən başlayaq. Regionların inkişafı təmin olunsa, paytaxtda gərginlik azalar. Avtomatik olaraq bölgələrə qayıdanlar çoxalar, şəhərdə maşın sayı da azalar.

İndi gələk lokal tədbirlərə. Problemin fundamental həllinə çox vaxt, enerji və vəsait lazım olduğundan, müvəqqəti çıxış yolu üçün bəzi təkliflər irəli sürülür. Onlardan biri də iş saatlarının tənzimlənməsidir ki, bu da müəyyən effekt verə bilər.

Şəhərdə tıxac probleminin həll edilməsi yolların əsaslı təmiri işlərinin bitirilməsi, nəqliyyatın idarəetmə sisteminin tam gücü ilə işləməsi, mərkəzi hissələrdə bina tikintisinə qadağa qoyulması kimi məsələlərin həllindən sonra mümkün ola bilər.

Metro stansiyalarının gec-gec artması, digər nəqliyyat növlərinin ləğv edilməsi (tramvay, trolleybus, elektriçka və s.) da ciddi təsir göstərir. Dəniz üzərindən sürətli marşrut katerlərinin hərəkəti də mərkəzdə tıxacları azalda bilər.

Digər üsul, Abşeron yarımadasında yerləşən ali təhsil müəssisələrinin heç olmasa yarısının və bəzi zavod-fabriklərin, bəzi dövlət idarələrinin regionlara köçürülməsidir. Bu, eyni zamanda, regionların inkişafına da ciddi dəstək ola bilər.

Paytaxtın köçürülməsi haqda təkliflər əsaslı deyil. Əvvəla, bunun üçün xeyli vaxt və həddən artıq böyük vəsaitlər lazımdır. İkincisi, bu qədər böyük enerji və vəsait regionlara qoyulsa, paytaxtın köçürülməsinə heç bir ehtiyac olmaz.

# "Əli Kərimli və onun kimilər qulaqlarını açıb eşitsinlər ki..."



***"Özünü radikal müxalifətin şəriksiz lideri kimi təqdim edən AXCP sədri Əli Kərimli yenə öz köhnə ampluasındadır. Necə deyərlər, qozbeli yalnız qəbir düzəldər". SİA xəbər verir ki, bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib. Onun sözlərinə görə, Azərbaycanın Müzəffər Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında yenilməz Ordumuz və Dəmir Yumruğa çevrilmiş xalqımızın birgə misilsiz fəaliyyəti nəticəsində Qarabağ üzərində suverenliyimiz tam və qəti təmin edilib: "Cənab İlham Əliyev oktyabr ayının 15-də Xankəndidə Dövlət Bayrağımızı qaldırdı. Burada tarixi proqram xarakterli çıxış edərək bütün proseslərə qiymət verdi, zəfərimizi qazandığımız tarixi nailiyyətimizi şərtləndirən amilləri sadaladı.***

Bütün bu reallıqlar fonunda gözləyirdik ki, Azərbaycan müxalifəti, onun radikal kəsimi nəhayət ki özündə bir güc tapacaq və etiraf edəcək ki, "Bəli, biz müxalifət olaraq iqtidarın bu və ya digər addımlarını bəzən lap kəskin tənqid edirik. Amma elə həqiqətlər var ki, onu görməmək də mümkün deyil. Bu siyasi korluq olardı. Biz etiraf edirik ki, cənab İlham Əliyev tarixi bir vəzifəni yerinə yetirə bilib və biz buna sevinərək qürur hissi keçiririk. Ordumuzu və xalqımızı təbrik edirik". Onlar belə qısa bir mətnlə iqtidarı təbrik etsə idilər, bu, çox rəğbətlə qarşılanardı. Lakin onların bir dəfə də olsun dilləri gəlmir ki, bu tarixi zəfərə imza atan Prezidentimizin adını çəkib onun xidmətini vurğulansınlar. Yenə də bulanıq suda balıq tutmaq taktikasını davam etdirirlər.

Bu tarixi zəfərimizə və qarşıdan bizi gözləyən strateji əhəmiyyətli digər məsələlərin həlli ilə bağlı konstruktiv mövqe ortaya qoymaq əvəzinə indi də başlayıblar: "Görəsən, Azərbaycanın Qarabağ üzərində suverenliyinin təmin edilməsi məsələsində Rusiya niyə kənarda qaldı?", "Görəsən bunun qarşılığında Rusiyaya hansı vədlər verilib?" kimi iddialar ortaya qoyurlar".

Deputat sözlərinə belə davam edib: "Əli Kərimli və onun kimilərə üzümü tutub deyirəm ki, bilin və agah olun, cənab İlham Əliyev müstəqil daxili və xarici siyasət həyata keçirir. Bu xalqın milli mənafeyindən irəli gələn bir siyasətdir. Prezidentimizin sözlərini görünür ki, Əli Kərimli ya eşitməyib, ya da eşitmək istəməyib. Prezidentimiz söyləyir: "Ən rahatı böyük bir dövlətin qanadları altına sığınmaq olardı. Çünki o səni qoruyur və hifz edir. Amma heç bir şey havayı olmadığı kimi bunun qarşılığında dövləti cürbəcür siyasi avanturalara sövq edə bilərlər. Biz çətin, amma şərəfli yol olan müstəqillik yolunu seçdik".

Əli Kərimli və onun kimilər qulaqlarını açıb eşitsinlər ki, Azərbaycan elə Rusiyanın qanadlarına sığınıb öz siyasətini həyata keçirə bilərdi. Bu rahat idi. Amma bunun qarşılığında bizi hansı təhlükələrin gözlədiyini hesablamaq elə çətin deyil. Azərbaycan heç bir dövlətin qanadları altına sığınıb siyasət həyata keçirən dövlət deyil. Onlar dövlətin bir nömrəli şəxsinin mövqeyini öyrənib nəticə çıxarsınlar. Biz müstəqil yol gedirik və işimiz haqq işidir. Haqq işimizə və bu iş naminə fədakar mübarizəmizə hörmətlə yanaşırlar. Rusiya görəndə ki, Azərbaycanın Qərblə bağlı atdığı addımlar Moskvanın əleyhinə deyil, bu Kremldə rəğbətlə qarşılanır.

Eyni zamanda, Azərbaycanın Rusiya istiqamətində öz strateji maraqlarından çıxış edərək atdığı addımlar Vaşinqtonda yaxşı dərk olunur və bilinir ki, bu, heç bir halda Ağ Ev əleyhinə deyil. Bütün bunlar hamısı bir reallıqdır. Ona görə hesab edirəm ki, Əli Kərimlinin bu mövqeyi öz mahiyyəti etibarilə anti-millidir və səfərbər olunmuş cəmiyyət vətəndaş həmrəyliyinin pozulması mənafeyinə xidmət göstərir. Azərbaycanda onsuz da güclü bir cəmiyyət formalaşıb. Xalqımız öz Prezidenti ətrafında monolit birlik nümayiş etdirir.

Xalqımız çox yaxşı bilir ki, xüsusilə son 20 il ərzində biz elə bir inkişaf yolu keçmişik ki, o bizim tarixi zəfərlərimizə gətirib çıxarır. Bu yolun və 20 ildə aparılan siyasətin müəllifi cənab İlham Əliyevdir. Xalqımız da onun ətrafınsa birləşərək irəli gedir. Bizi qarşıda daha böyük uğurlar gözləyir. Əli Kərimli kimilərin isə bütün bunlara görə yuxusuna haram qatılır".

***Ayşən Vəli***

# Əli Kərimli cəmiyyətə özünü trol kimi tanıdıb

Mövcud reallıq və faktlar ondan ibarətdir ki, bu gün dağıdıcı müxalifət əvvəlki illərə nisbətən daha ağır vəziyyətdədir. Çünki Azərbaycan cəmiyyətinin onlara olan qəzəb və nifrəti fonunda xarici ağaları ilə də münasibətləri heç də ürəkaçan deyil. Səbəbi xarici anti-Azərbaycan qüvvələrin, xüsusi ilə də, erməni lobbisinin onların qarşısında qoyduğu şərtlərin böyük hissəsinin hələ də yerinə yetirə bilməmələridir. Düzdür, verilər tezislərə uyğun işlərini qurub, sosial şəbəkələr vasitəsi ilə böhtan kampaniyası aparır və dezinformasiya xarakterli informasiyalar tirajlayırlar. Lakin bu fəaliyyət nəticə vermir. Cəmiyyət onların yaydıqları böhtanları qətiyyətlə rədd etdiyindən fəaliyyətləri özlərinə qarşı çevrilmiş olur. Ona görədir ki, AXCP sədri Əli Kərimli, "Milli Şura"nın sədri Cəmil Həsənli, Şura üzvləri Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri xalqa qarşı qeyri-etik ifadələr səsləndirirlər. Pulun şirinliyinə aldanan dağıdıcı müxalifət istər 44 günlük Vətən savaşında, istərsə də üçrəngli bayrağımızın Xankəndidə ucaldılmasından sonra geniş və əhatəli şəkildə cəmiyyətdə çaşqınlıq yaratmağa hesablanan fəaliyyət yolu tuturlar. Bu da onu deməyə əsas verir ki, xarici maraqlı dairələrin göstərişlərini yerinə yetirmək Ə.Kərimli, C.Həsənli, A.Hacılı və digərləri üçün daha önəmlidir.

"Bu bayquş bir daha yanıldı"

Fikir verin, Ermənistanın diz çöküb, təslim olmasından sonra AXCP sədri Ə.Kərimli demək olar ki, hər gün təxribat xarakterli açıqlamalar yayımlayırdı. Gah deyirdi ki, sərhəd keçid məntəqəsi yaradılmayacaq, gah da iddia edirdi ki, Laçına gedərkən rus sülhməramlılarından icazə almalı olacağıq. Başqa bir sayıqlamasında isə Ə.Kərimli bildirirdi ki, Xankəndi, Xocalı, Ağdərə və digər ərazilərimizə getmək mümkün olmayacaq. Lakin bu bayquş bir daha yanıldı. Azərbaycan həm Laçın sərhəd keçid məntəqəsi yaratdı, həm də Laçına sərbəst olaraq gediş gəlişi təmin etdi. Oktyabrın 15-də isə Müzəffər Ali Baş Komandan, Yenilməz Sərkərdə, Prezident İlham Əliyev Xankəndidə, Xocalıda, Əsgəranda, Ağdərədə, Xocavənddə və digər ərazilərimizdə üçrəngli bayrağımızı ucaltdı. Bununla da bütün suallara cavab verdi, nəyi, necə və nə zaman etməyi yalnız O bildiyini nümayiş etdirdi.

### Əli Kərimlidə siyasi mədəniyyət olsa idi, siyasətdən gedərdi

Əgər Ə.Kərimli və digərlərində siyasi mədəniyyət və cəsarət olsa idi, bundan sonra siyasətdə qalmağı özlərinə abır, həya edərdilər, xalqdan üzr istəyər və siyasətdən gedərdi. Lakin göründüyü kimi, siyasətə gəlir mənbəyi kimi baxan Ə.Kərimli nəinki siyasətdən getmək haqqında addım atır, əksinə, həyasız və abırsız hərəkətlərini və davranışlarını daha geniş formada davam etdirir. Məhz bu əməlinə görədir ki, Müasir Müsavat partiyasının sədri Hafiz Hacıyev Ə.Kərimlini siyasi fahişəlikdə günahlandırıb. Bildirib ki, o kim çox pul verərsə, həmin dairələrin qucaqlarına atılır: "Yəni, bu fərdlərə siyasətdə siyasi fahişə, siyasi pozğun deyirlər. Ümumiyyətlə, Ə.Kərimliyə kim pul verirsə, onların qucağında oturur, özü də məmnuniyyətlə. Məsələn, Qərb verəndə Qərbin, Şərq verəndə Şərqin, Şimal da verəndə Şimalın qucağında özünü rahatlayır". Müasir Müsavat Partiyasının sədri eyni zamanda bildirib ki, AXCP sədri barədə mütləq şəkildə ciddi ölçülər götürülməlidir. Çünki bu ünsürə imkan verilərsə,



daha böyük xəyanətlərə imza atacaq: "Sirr deyil ki, müxtəlif dövlətlərin Azərbaycanda müəyyən maraqları var və bu maraqları həyata keçirməkdən ötrü Ə.Kərimli kimi adamlardan istifadə edirlər. Misal üçün, mənim də Azərbaycanda müxtəlif diplomatik nümayəndəliklərdə görüşlərim olur və həmin vaxtlar mənə elə təkliflər olunur, ancaq söz yox ki, Vətənimin, dövlətimiz maraqları mənim üçün hər şeydən yüksəkdədir. Ə.Kərimli üçün isə bu amil mövcud deyil. İndi elə adamlar var ki, bütün yerlərə işləməklə özlərini satırlar".

### Tofiq Yaqublu və Əli Kərimli satılmağa öyrəncəlidirlər

Bu gün Azərbaycan xalqı qürurverici anlar yaşayır. İşğaldan azad edilən ərazilərimizdə geniş quruculuq, təmir və bərpa işləri aparılır. Hər gün hansısa kənd və qəsəbəyə keçmiş qaçqın və köçkünlərin qayıdışı barədə məlumatlar eşidirik. Sevincdoğuran xəbərlər yayıldıqca, dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq azərbaycanlıların üzü gülür, sevinir, fərəh hissi keçirir. Təəssüf ki, dərdə, qüssəyə mübtəla olanlar yalnız ermənilər və onları himayəyə götürmüş Makron kimi əndrəbadi məxluqlardır. Azərbaycanın dağıdıcı müxalifəti də torpaqlarımızın azadlığına qovuşmasından heç də məmnun deyil. Çünki maddi və mənəvi dəstək aldıqları xarici maraqlı dairələrin tələbi və göstərişləri bundan ibarətdir. Ə.Kərimli, T.Yaqublu, C.Həsənli və digərləri satılmağa öyrəncəli olduqlarından, Azərbaycan xalqının yanında deyil, erməni lobbisinin istək və tələblərinin icraçısı rolunda çıxış etməyə üstünlük verirlər. Azərbaycan xalqı bu üzüdönüklərin əməllərinə bələd olduqlarından onları qınayır və haqlarında hüquqi tədbirlərin görülməsini arzu edirlər. Əminliklə demək olar ki, gec-tez xalqın tələbi yerinə yetiriləcək və hüquq-mühafizə orqanları milli maraqlarımıza qarşı çıxan dağıdıcı müxalif funksionerlərin cəzalandırılması üçün hərəkətə keçəcəklər.

**İ.ƏLİYEV**

# "İkili siyasət Qərb dövlətlərinin iç üzünün göstəricisidir"

*"Ötən əsrin sonlarında Ermənistandan 200 minə yaxın azərbaycanlıların və Azərbaycanın Qarabağ bölgəsindən milyona yaxın vətəndaşlarımızın zorla dədə-baba torpaqlarından qovulmasına, kənd və şəhərlərimizin vəhşicəsinə dağıdılmasına göz yuman Qərb dairələri son günlər 35-40 minə yaxın özləri rahat şəkildə Azərbaycanın haqlı tələb etdiyi qanunlara tabe olmaq istəməyərək Qarabağın dağlıq hissələrindən köçüb getmələrin etnik təmizləmə kimi qələmə verməlari tərəf tutmaq və öz maraqlarına uyğun hərəkət etmələrinə əyani sübutdur".*



MÜNASİBƏT



Bunu SİA-ya açıqlamasında Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Anar Xəlilov deyib.

Onun sözlərinə görə, Azərbaycan dinc erməni əhalisinin təhlükəsizliyinə dəfələrlə bəyan edərək zəmanət verməsinə baxmayaraq erməni əhalisi könüllü olaraq Qarabağın dağlıq hissəsini özləri tərk ediblər: "Azərbaycanın erməni əhalisindən yalnız bir tələbi olub, Azərbaycan qanunlarına tabe olmaq. Azərbaycanın apatdığı siyasətdə etnik təmizləmə niyyəti olmayıb. Yalnız məqsəd seperatizmə və terrorçulara qarşı mübarizə və dünyanın tanıdığı qanunu Azərbaycan əraziləri üzərində suverenliyin bərpa olunması olub. BMT-nin dörd qətnaməsini Azərbaycan ikili standartlar nəticəsində tək olaraq həyata keçirib. Mövcud dünya qanunlarına uyğun olaraq Azərbaycanın öz ərazilərini işğalçı və terrorçulardan təmizləməsi tam qanunidir və heç bir dövlətin haqqı çatmır ki, buna hər hansısa bir don geyindirə. Xüsusilə də tarix boyu etnik təmizləmə, kolonializəşdırma, soyqırım siyasəti aparmış dövlətlər. Azərbaycanı öz qanun və haqlı addımlarına görə etnik təmizləmədə ittiham etmək tərəf saxlamaq və faşizm ideyalarına dəstək verməkdir. Buna başqa ad vermək olmaz. Eyni zamanda, geosiyasi oyunlarda öz maraqlarına uyğun siyasət aparmaqdır. Öz maraqları naminə haqqı görməməzlikdən gəlmək isə ədalətsizlik və siyasi tərbiyəsizlikdir. Bu cür addımlar və haqsız ittihamlar mövcud dünya düzənini təhlükəyə sürümək deməkdir. Məsələyə bu cür yanaşmaq tək Azərbaycanın mənafeyini yox, dünyada digər dövlətlərin də gələcəkdə taleyində ağır nəticələrə yol açmış olur. Dünyada bu gün bu cür ədalətsiz mövqe sərgiləmək özünü demokrat adlandıran bəzi Qərb dövlətlərinin iç üzünü ortaya qoyur. İki dünya müharibəsinin də baş verməsinin səbəbkarı olan bu dövlətlərin özünü nə adla qələmə verməsindən asılı olmayaraq atdıqları addım öz mənafeləri uğrunda dünya xalqlarının rahat yaşamasına təhlükədir. Əslində, bu gün dünya dövlətləri bunu anlayıb Azərbaycanın haqlı mövqeyini müdafiə etməlidirlər. Çünki bu onların da maraqlarına və gələcək təhkükəsizliyinə xidmət etmiş olacaqdır. İstər Qərb olsun, istər başqası, fərqi yoxdur, Azərbaycana qarşı bu gün hər hansı formada ittiham irəli sürən tərəf saxlayan dövlətlər bəşəriyyət qarşısında cinayət etmiş sayılır. Bu fikri qəbul etməsələr də belə bu belədir. Amma dünyada bir ilahi ədalət deyilən bir haqq yolu da var. Azərbaycan da bu yoldadır. Qələbə bütün hallarda Azərbaycanındır. Azərbaycanın güclü xalqı, ədalətli siyasi lideri və özünü müdafiə etməyi bacaran ordusu, ən nəhayət bu haqq yolda onu dəstəkləyən qardaş, dost, güclü dövlətləri var. Bizim məqsədimiz bundan sonra güclü olmaq, işğaldan azad olunan yurd yerlərimizi tez bərpa edərək kütləvi sürətdə öz dədə-baba torpaqlarımızda məskunlaşmaqdan ibarətdir".

**Gülyana**

# "Onlar beynəlxalq məhkəmədə buna görə cavab verəcəklər"

"Qərbin hamısı yox, bir hissəsi Cənubi Qafqazda, Azərbaycanla Ermənistan arasında mövcud vəziyyətə, sentyabrın 20-də həyata keçirilmiş antiterror tədbirlərinin mahiyyətinə və nəticəsində qeyri-ədalətli yanaşma göstərir. Bunun da başında Fransa, bir neçə ABŞ ştatı və bir neçə Avropa ölkələri dayanıb". Bu sözləri SİA-ya açıqlamasında deputat Rüfət Quliyev deyib. Deputat sözlərinə belə davam edib: "Bu Ermənistan lobbiçilərinin, revanşistlərin və imkanlı adamların fikirləridir. Bu da heç nə göstərmir. Sadəcə olaraq müəyyən çaxnaşma salmaq və Cənubi Qafqazda ara vuraraq problem yaratmaq istəyirlər. Yəni, stəkanda fırtına yaratmaqla məşğuldurlar.

Qarabağ problemi artıq bitib. Bütün dünya da bunu belə qəbul edib. Bu məsələyə yenidən qayıtmaq onların zəifliyini göstərir.

Digər məsələ ondan ibarətdir ki, son 30 ildə külli miqdarda 10 milyard dollarla vəsait xərclənilib. İndi bunun hesabatını vermək lazımdır ki, bu vəsaitlər hara gedib. Bu vəsaitlər Ermənistana qoyulubsa, Ermənistanda iqtisadi sıçrayış olmalı idi. Yaxud Qarabağa qoyulmuşdusa, niyə bu görünmədi? Azərbaycan ordusu Qarabağı müşahidə edərkən gördü ki, burada faşistlikdən başqa heç bir şey olunmamışdı. Ermənilər Azərbaycan torpaqlarını talan etmişdilər. Onlar beynəlxalq məhkəməyə buna görə də cavab verəcəklər. Təbiidir ki, araqarışdıranlar var və bunu gündəmdə saxlamağa çalışırlar. Amma məsələ həll olunub və heç bir addım ata bilməyəcəklər. Dünya bizə tərəfdir".



**Ayşən Vəli**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Dünən, oktyabrın 23-də Tehranda regional "3+3" formatı (Azərbaycan, Ermənistan, Gürcüstan, İran, Rusiya, Türkiyə) çərçivəsində xarici işlər orqanları rəhbərlərinin görüşü keçirilir. Lakin bir gün əvvəl Gürcüstan Xarici İşlər Nazirliyi ölkə nümayəndələrinin İran paytaxtına gəlməyəcəyi ilə bağlı bəyanat yayıb. Xatırladaq ki, "3+3" formatında ötən il Moskvada təşkil olunan ilk görüş də Gürcüstanın iştirakı olmadan baş tutub. "3+3" formatında əməkdaşlıq bir çox sahələrdə sıx əlaqələrə əsaslanan regional sistemin yaradılmasını nəzərdə tutur. Lakin bu ideya hələ də təbliğ olunmayıb. Baxmayaraq ki, çoxları optimizm üçün səbəbin olduğuna inanır.***

# "3+3" formatı: tərəqqiyə ümid varmı?








Maraqlıdır, belə bir əməkdaşlıq platforması bütün iştirakçılar arasında dinc münasibətlərin yaradılması və regionun inkişafı üçün nə dərəcədə real perspektivlidir? Region dövlətlərinin tanınmış ekspertləri bu məsələlərlə bağlı fikirlərini Caliber.Az-la bölüşüblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Rusiya Dövlət Humanitar Elmlər Universitetinin Müasir Şərq və Afrika kafedrasının dosenti, Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Lana Ravandi-Fədai hesab edir ki, hazırda "3+3" formatında əməkdaşlıqda nikbinlik və regional dirçəliş üçün əsas var.

"Bildiyiniz kimi, sentyabr ayında Azərbaycan



beynəlxalq hüquq çərçivəsində ölkənin bütün ərazisi üzərində öz suverenliyini bərpa etdi, buna görə də Qafqazda ən mühüm mübahisəli ərazi məsələlərindən biri həll olundu. Bundan əlavə, son illər Rusiya-Türkiyə və Türkiyə-İran münasibətləri xeyli yaxşılaşıb və son həftələr İran-Azərbaycan münasibətlərində də gərginliyin azalması müşahidə olunur. Ağır məğlubiyyətə uğrayan Ermənistan daha barışdırıcı mövqe tutdu və qonşuları ilə əməkdaşlığa hazır oldu", - deyə Rəvandi-Fədai qeyd edib.

Gürcüstanın mövqeyinə gəlincə, birincisi, hakim "Gürcü Arzusu" partiyasının Rusiyaya münasibəti qərbyönlü prezident Salome Zurabişvilidən daha yaxşıdır. O, bu yaxınlarda Konstitusiya Məhkəməsi tərəfindən hökumətin icazəsi ilə Qərbə səfərləri ilə bağlı qanun pozuntularında ittiham olunur.

Şərqşünas bildirib ki, ölkədə prezidentin mövqeyi zəifləyir. "Ona görə də nəzəri cəhətdən Gürcüstanın bu formatla bağlı mövqeyini yumşaltmaq olar. İkincisi, 2021-ci il dekabrın 10-da Moskvada keçirilən "3+3" formatının ilk görüşü də Gürcüstan nümayəndəsinin iştirakı olmadan baş tutub. Ona görə də Gürcüstanın boykot edəcəyi halda belə, qalan iştirakçılar razılaşarsa, bu formatda növbəti görüşlər yenə də uğurla keçiriləcək, məncə, indiki şəraitdə buna tam ümid etmək olar.

Qeyd edək ki, Cənubi Qafqaz dövlətləri arasında formatın həyata keçirilməsində ən çox Azərbaycan maraqlıdır. O, sonradan Avropaya çıxış yollarından biri kimi Türkiyəyə avtomobil və dəmir yolunun çəkilməsində, eləcə də digər infrastruktur layihələrinin həyata keçirilməsində maraqlıdır.

Bu layihələr həm də region ölkələri arasında infrastruktur, ticarət və iqtisadi baxımdan qarşılıqlı əlaqələrin sürətlə artmasına töhfə verəcək. Bu marşrutların bir çoxu Ermənistan ərazisindən keçəcəyi üçün bu ölkə həm də mal və xidmətlərin tranzitindən böyük iqtisadi səmərə alacaq",- alim əmindir.

Öz növbəsində, politoloq, Qafqaz İslam Araşdırmaları Mərkəzinin direktoru Şota Aphaidze "3+3" formatını Gürcüstan və regionun digər ölkələri üçün vacib hesab edir.

"Çünki bu, çoxlu iqtisadi imkanlar verə bilər. Gürcüstan belə formatdan çox böyük maliyyə dividentləri ala bilər, çünki burada bir çox aspektlər enerji resursları ilə bağlı olacaq. Gürcüstanın özünün neft və qaz məhsulları olmadığı üçün bu cür əməkdaşlıq yolu ilə onları yaxşı qiymətə əldə edə biləcək.

Üstəlik, Gürcüstan tranzit ölkədir və "3+3" layihələri çərçivəsində yeni dəmir yolu daşımaları, quru




v ə hava yolları inkişaf etdirilə bilər.

Digər iqtisadi faydalar Gürcüstanın İran, Türkiyə, Rusiya, Azərbaycan və Ermənistanla ticarət-iqtisadi layihələrdə iştirak etməsi ilə ortaya çıxacaq. Yəni, bu, region üçün çox vacib formatdır", - deyə mərkəzin direktoru əmindir.

Düzdür, o, qondarma Cənubi Osetiya və Abxaziya ilə bağlı problemlərin siyasi aspektdən bir qədər mane olduğunu xatırladıb.

"Şəxsən mənim mövqeyim (bir çox ağıllı ekspertlərin mövqeyi kimi) ondan ibarətdir ki, infrastrukturun açılması, yeni marşrutlar, o cümlədən Cənubi Osetiya və Abxaziya ərazilərindən keçməklə bizə yaxınlaşma, münasibətlərin bərpası, münaqişələrin həlli baxımından kömək edəcək. Yəni, biz mane olmamalıyıq, əksinə, bu cür təşəbbüsləri yarı yolda qarşılamalıyıq, çünki onların iqtisadi, mədəni və humanitar komponentləri sayəsində ərazilərimizi reinteqrasiya etmək mümkündür",- Aphaidze deyir.

Ermənistana gəlincə, həmsöhbətimiz hesab edir ki, prinsipcə, Qarabağla bağlı 30 il davam edən qarşıdurmanın kəskin mərhələsi başa çatdıqdan sonra, xüsusən də evlərinə bu sakitliklə geri qayıtmaq istəyən Qarabağ ermənilərindən sonra tədricən format işinə qoşulacaq. İrəvan və Bakı isə sərhədlərin qarşılıqlı toxunulmazlığına zəmanət verən sülh müqaviləsi imzalayacaqlar.

"Onda Zəngəzur dəhlizinin Ermənistan ərazisindən açılması məsələsi artıq həll oluna bilər. Hesab edirəm ki, bu, sırf iqtisadi, logistika və infrastruktur layihəsidir.

Yeni "3+3" iqtisadi layihələrin həyata keçirilməsinə mane olan siyasi aspektləri və məhdudiyyətləri aradan qaldıra biləcək formatdır. Rusiya, İran və Türkiyə kimi böyük dövlətlər isə artıq üç Cənubi Qafqaz dövləti ilə daha fəal əməkdaşlıq edəcəklər. Bu yaxşıdır", - deyə politoloq yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
24 oktyabr
2023-cü il


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Bəzən şiddət hər iki tərəfin seçimi olur”



***““Həm döyür, həm sevir” düşüncəsi bir çox hallarda insanın bu cür fikirlərlə böyüməsi, ona öyrəşməsi ilə formalaşır. Yəni atasının anasını döydüyünü görüb, həm də sevdiyini eşidərək böyüyən uşaqlar gələcəkdə öz şəxsi həyatlarında da bunu normal hal kimi qəbul edirlər”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova deyib.***

Onun sözlərinə görə, şiddətə meyilli kişilər də təbii ki, qadında bu fikri formalaşdırmaq üçün əllərindən gələni edirlər: “İstənilən halda insan müxtəlif səbəblərə dayanaraq bu ifadəyə inanmağı seçir.

“Bu insanların fikrini dəyişdirmək üçün

**PSİXOLOQ FİKRİ**

çalışmağa dəyərmi? “ sualına isə cavab tapmaq çətin olur. Çünki insanın böyüdüyü mühit onun komfort zonasına çevrilir və mühitdə gördükləri, eşitdiklərindən onu uzaqlaşdırmaq o qədər də asan və mümkün bir proses olmur. Buna görə də insan özü həyatında yaşadıqlarının səhv olduğunu dərk etməli, özü öz həyatını analiz etməlidir. Ümumiyyətlə “həm döyür, həm sevir” ifadəsinin hökm sürdüyü münasibətlərdə şiddəti göstərənlə bərabər, şiddəti qəbul edib susanın da qəbahəti böyükdür. İstənilən halda şiddət qəbuledilməzdir. Lakin təəssüf ki, şiddət bəzən hər iki tərəfin seçimi olur”.

***Səbinə Hüseynli***

# Hansı meyvə-tərəvəzlərin qiymətində artım var?



**EKSPERT AÇIQLADI**

“Qış fəslinə hələ çox zaman qalsa da artıq ölkədə meyvə-tərəvəzlərin bahalaşması prosesinə başlanılıb”. Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Birliyinin sədri, iqtisadçı-ekspert Akif Nəsirli deyib.

Onun sözlərinə görə, yeni kənd təsərrüfatı mövsümünün bir hissəsi başa çatdığı üçün yay mövsümündə yetişən meyvə-tərəvəzlərin qiymətində artıq bahalaşma müşahidə olunur: ”Hal-hazırda alma, nar və payızda yetişən meyvə-tərəvəzlərdən başqa, yerdə qalan hər şeydə bahalaşma start götürüb. Heç göyərtidə də o qədər ucuzlaşma yoxdur. Bu Azərbaycanda həm inflyasiya, həm də mövsümün başa çatması ilə bağlıdır. Məsələn, kartof, soğan, pomidor və xiyarın qiymətlərində də artımlar var. Bu artımlar iki tendensiyanın təsiri altında performans göstərir”.

Akif Nəsirli sözlərinə belə davam edib: ”Qarşıdakı həftələrdə də bahalaşmanın davam edəcəyi gözlənilir. Bahalaşmanın daha köklü səbəbi ölkədə kənd təsərrüfatı məhsullarının qıtlığı və idxaldan asılılıqdır. Digər tərəfdən dünyada da ərzaq məhsulları bahalaşıb. Artıq üçüncü həftədir buğda bahalaşır. Biz də ərzaq məhsullarının 50 faizini xaricdən çıxan edirik. Ona görə də dünya bazarındakı bahalaşma bizim idxal məhsullarımızın da bahalaşmasına gətirib çıxaracaq”.

***Ayşən Vəli***

# Şagirdlərin elektron yerdəyişməsinə start verilib

Dünən saat 15:00-dan etibarən 2-11-ci sinif şagirdlərinin elektron yerdəyişməsi prosesinə start verilib. Elm və Təhsil Nazirliyindən SİA-ya verilən xəbərə görə, şagirdlərin yerdəyişməsi prosesi www.sy.edu.az portalı vasitəsilə həyata keçirilir.

Müxtəlif səbəblərdən 10-cu siniflərə qeydiyyat üçün gecikən şagirdlər 23–31 oktyabr tarixləri arasında ümumi təhsil müəssisələrinə qəbul üçün müraciət edə bilərlər. Qeyd edək ki, 10-cu siniflərə şagirdlərin qəbulu da



şagird yerdəyişməsi elektron sistemi (www.sy.edu.az) vasitəsilə aparılacaq.

# Madonnanı ölümlə hədələdilər!



Məşhur xarici müğənni Madonna Londonda verdiyi konsertdə İsrail və HƏMAS arasında davam edən münaqişə haqqında danışıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, o, ”Hazırda İsraillə Fələstin arasında baş verənlər ürək ağrıdıcıdır və heç kim nə baş verdiyini görmək istəmir. Mən uşaqların motosikletdən atıldığını, qaçırıldığını, körpələrin başlarının kəsildiyini, sülh məclislərində uşaqların güllələndiyini və öldürüldüyünü görürəm.

Dünyada nələr baş verir?” - deyə səhnədə çıxış edib. Madonna sözügedən açıqlamalarından sonra ölümlə təhdid edilib. O, bu səbəbdən təhlükəsizlik tədbirlərini artırıb.


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000